www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 sentyabr 2018-ci il Çərşənbə № 201 (7090) Qiyməti 60 qəpik

**Xəbər**

**Azərbaycanın Rusiyadan aldığı silahlar - tam siyahı**

yazısı səh.4-də

**Gündəm**

**Ermənistanın təyyarə təxribatına Azərbaycandan sərt xəbərdarlıq**



İşğalçı ölkə BMT Baş Assambleyasında keçiriləcək görüş ərəfəsində Qarabağda hərbi təlimlər keçirməyə qərar verdi

yazısı səh.11-də

**Deputatdan prezident yanında ictimai şura yaratmaq təklifi**

yazısı səh.7-də

**İdlibdən sonra Ərdoğanla Putinin Qarabağ razılaşması mümkünmü?**

yazısı səh.8-də

**100-dən artıq hakim məhkəmə sistemindən kənarlaşdırılıb - səbəb...**

yazısı səh.3-də

**Məmmədyarov müsəlman ölkələrinə çağırış etdi**

yazısı səh.9-da

**Banklarla bağlı mühüm dəyişiklik: Müşahidə Şurasının səlahiyyəti artırılır**

yazısı səh.3-də

**Milli Şura Qarabağ mitinqinə "siyasi rəng" qatmaq istəyir**

yazısı səh.7-də

**Azərbaycanda mərmi atan yeni snayper silahı istehsal edilib**

yazısı səh.3-də

**Tovuzda tikilən dəryaça ümidləri doğrultmayıb**

yazısı səh.4-də

**Aclıqla bütün xəstəliklərə qalib gəlmək olar, əgər...**

yazısı səh.12-də

**İranlı tələbəni öldürənlərə 90 il həbs cəzası verildi-qətlin təfərrüatı**

yazısı səh.14-də

**"Exchange"lərin niyə açılmaması ilə bağlı ilginc iddia**

yazısı səh.13-də

# PAŞİNYAN AMERİKADAN DA ƏLİBOŞ DÖNÜR - BAKI ŞANS VERSƏ...

İrəvana mer seçkilərində qələbədən ruhlanan Ermənistanın baş naziri varlı erməni lobbisinə çağırış etdi; diaspora və Qərb isə işğalçı ölkəyə böyük sərmayə qoymağa tələsmir - tək səbəb; **rusiyalı analitik:** "Bakıda da Paşinyanın niyyətini yaxşı başa düşürlər..."




yazısı səh.9-da

# Bakının kanalizasiya sistemi yenə "boğuldu" - səbəblər

"Azərsu" ASC-yə ayrılan 8,6 milyardı "sel apardı"; qurum ona həvalə edilən milyardlarla manatı elə xərcləyib ki, hələ istismar müddəti bitən xətlərin yarısı belə təzələnməyib...

yazısı səh.10-da



*Siyavuş Novruzov:*

**"O halda növbədənkənar parlament seçkiləri keçirilə bilər"**

yazısı səh.5-də



İlhamə Qədimova

**Kənd təsərrüfatı nazirinin yeni qadın müavini kimdir?**

yazısı səh.10-da



İrad Hacıyev

**"İrşad telekom" sahibinin ölümündə kriminal izlər - yeni iddialar**

yazısı səh.14-də

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018



## Tramp: "Ruhani gözəl insandır"

**ABŞ prezidenti Donald Tramp iki ölkə arasında münasibətlərin gərginləşməsi fonunda İran prezidenti Həsən Ruhani haqda fikir bildirib. Modern.az xəbər verir ki, Tramp öz twitter hesabında Ruhanini gözəl insan adlandırıb.**

O, həmçinin İran prezidenti ilə görüşmək niyyətinin olmadığını da qeyd edib.

"Mənim hazırda İran prezidenti Həsən Ruhani ilə görüşmək niyyətim yoxdur. Bəlkə gələcəkdə. Mən əminəm ki, o, sözsüz ki gözəl insandır" - Tramp yazıb.

Qeyd edək ki, Tramp sentyabrın 26-da BMT Baş Assambleyasının 73-cü qurultayı çərçivəsində özünün sədrlik edəcəyi İranla bağlı görüşün keçirilməsi təşəbbüsünü irəli sürüb.

## Azərbaycanda aclıq problemi yoxdur


Sevinc Həsənova

**"Bu gün Azərbaycanda heç bir aclıq problemi yoxdur". Bunu iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Milli Məclisin rolu" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.**

O qeyd edib ki, bu problemin yaranmaması və yaşanmaması üçün ölkədə bir sıra mühüm tədbirlər görülüb, ərzaq təhlükəsizliyinin təmin edilməsi yönündə dövlət proqramları təsdiq olunub.

Nazir müavini vurğulayıb ki, Azərbaycanda aparılan uğurlu işlərin nəticəsidir ki, ölkəmizdə yoxsulluğun səviyyəsi 5-dən aşağıya endirilib.

S.Həsənova əlavə edib ki, Azərbaycanın da qoşulduğu Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) çatılması istiqamətində böyük işlər görülür.

"Yaxın zamanlarda bu istiqamətdə bir çox beynəlxalq qurumların iştirakı ilə Azərbaycanda geniş beynəlxalq forum keçiriləcək".

## Navalnıy həbsdən çıxan kimi yenə tutuldu

**Rusiya müxalifətinin lideri Aleksey Navalnıy 30 günlük həbs həyatından azad olunan kimi yenidən saxlanılıb.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə Navalnıyın siyasi fəaliyyətini davam etdirən Leonid Volkov sosial şəbəkə hesabında məlumat paylaşıb.

Məlumata görə, müxalifət lideri aksiyaların birində bir neçə şəxsin yaralanmasında və əmlakların zərər görməsində ittiham edilərək saxlanılıb.

L.Volkov Navalnıyın daha 20 gün həbs cəzası ala biləcəyini bildirib.

Qeyd edək ki, A. Navalnıy sonuncu dəfə mayın 5-də Puşkin meydanında prezident Vladimir Putinin əleyhinə təşkil olunmuş aksiyada həbs edilmişdi. Bir gün sonra o, sərbəst buraxılsa da, mayın 11-də yenidən məhkəməyə aparılaraq haqqında 30 sutka həbs qərarı verilmişdi.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Neft 100 dolları keçəcək



**Dünya bazarında neftin qiyməti sürətlə artmağa davam edir. Artıq Brent markalı neftin qiyməti 80 dolları keçib. Görünən odur ki, dünya nef bazarı ABŞ prezidenti Donald Trampın Neft İxracatçıları Ölkələri Təşkilatına (OPEK) yönəlik ittihamlarına deyil, reallığa reaksiya verir. Xatırladaq ki, bir neçə gün əvvəl Tramp yenidən OPEK-i "inhisarçı" adlandıraraq, dərhal neftin qiymətlərini aşağı salmağa çağırıb. Amerikalı lider bu fikirləri özünün twitter səhifəsində yazıb. Tarmp bildirib ki, biz Yaxın Şərq ölkələrini müdafiə edirik, onlar uzun müddət biz olmadan təhlükəsiz vəziyyətdə qala bilməzlər: "Bununla belə, yenə də qiymətləri artırmaqda davam edirlər. İnhisarçı OPEK neftin qiymətlərini dərhal aşağı salmalıdır".**

Bloomberg-in yazdığına görə, heç OPEK də bu dəfə Trampın hədələrini adekvat cavablandırmır. Əsas ticarət mərkəzləri 2014-cü ildən bəri ilk dəfə olaraq neft qiymətlərinin yenidən 100 dollarlıq həddi keçəcəyindən danışırlar. OPEK isə bu zaman Amerika sanksiyalarına görə bazardan çəkilən İran neftinin yerini doldurmaq üçün nəticəsiz cəhdlər etməkdədir. Ötən gün Brent markalı neft son dörd ildə ən yüksən həddə çatıb. Prezident Donald Tramp isə məhz belə qiymət sıçrayışlarına yol verməməyə çalışır. Onun OPEK-ə yönəlmiş ittihamları da bundan qaynaqlanır. Lakin Əlcəzairdə keçirilən toplantıda təşkilat brimənalı şəkildə anlatdı ki, ABŞ-ın sürətlə neftin qiymətini aşağı salmaq tələbinə boyun əymək niyyətində deyil. Bu siqnal Sinqapurda toplaşan neft sənayesi təmsilçiləri, treyderlər, neft emalçıları və bankirlərin neftin qiyməti ilə bağlı optimist proqnozlarının səslənməsinə səbəb olub.

Asiya-Sakit okean neft konfransında çıxış edən "Merkuri Enerji Qrup"un həmtəsisçisi Daniel Jeqqi (Daniel Jaeggi) bildirib ki, "bazarın dördüncü rübdə gündəlik azalacaq 2 milyon barel təklifə veriləcək cavabı yoxdur": **"Fikrimcə, qiymətin 100 dollara qədər sıçrayacağını qətiyyən istisna etmək olmaz".**

"Mayda Tramp İrana qarşı sanksiyaların sərtləşdiriləcəyini açıqladıqda bazarda azalacaq neft təklifinin gündəlik cəmi 300-700 min barel olacağı gözlənilirdi" - bunu "Trafiqura Qrup" şirkətinin treydinq bölməsinin həmdirektoru Ben Lakok(Ben Luckock) deyir. Onun sözlərinə görə, artıq böyük çoxluq bu fikirdədir ki, gündəlik azalma 1,5 milyon barel təşkil edəcək. Lakokun fikrincə, Milad bayramına qədər neft qiymətləri 90 dollarlıq, 2019-cu ilin əvvəlində isə 100 dollarlıq həddi keçəcək. Buna səbəb olan digər amil isə Venesuelada hasilatın gündən-günə azalmasıdır. Belə ki, dünyanın neftlə ən zəngin ölkəsində gündəlik neft hasilatı bu ilin iyununda 1,5 milyon barelə - son 30 ildə ən aşağı səviyyəyə düşüb. Hazırda müstəqil mənbələr hasilatın 1,2 milyon barel təşkil etdiyini bildirirlər.

Bu mürəkkəb şəraitdə OPEK hələ ki gözləmə mövqeyi tutur. Səudiyyə Ərəbistanı, Rusiya və Birləşmiş Ərəb Əmirlikləri ötən bazar Əlcəzairdə baş tutan toplantıda bazarda azalan təklifin yerini dolduracaq qədər imkanlarının olduğunu, lakin həmin imkanlardan vaxtından əvvəl yararlanmaq niyyətində olmadıqlarını bəyan ediblər.

Səudiyyə Ərəbistanının energetika naziri Xalid əl-Falih bildirib ki, onların hasilatı artırmamalarının bir səbəbi var: **"Bizdən neft alan bütün alıcılara istədikləri qədər neft verirk Tələbat artmalıdır ki, təklif də artsın".** Nazir ölkəsinin sentyabr-oktyabr aylarında hasilatı artırmaq niyyətində olduğunu desə də, konkret nə qədər artacağını açıqlamayıb.

"Bank of Amerika"nın xammal məhsullarının tədqiqatı bölməsinin rəhbəri olan Fransisko Blanç birinci gün müştərilərə yönlik xəbərdarlıqla çıxış edərək bildirib ki, OPEK-dən gələn siqnallar "bu şərtlərlə neftin qiymətindəki sıçrayış ehtimalı 2008-ci ildəki kimi, qiymətlərin çökməsi ehtimalını da artırır". Xatırladaq ki, 10 il əvvəl Brent neftinin qiyməti 150 dollara qədər yüksəldi və bir neçə aydan sonra kəskin eniş yaşadı. Buna qlobal maliyyə böhranı nəticəsində tələbin kəskin azalması səbəb oldu. Bu dəfə isə qiymətlərə təhlükə ABŞ-Çin ticarət müharibəsindən gəlir. Bu müharibə nəticəsində Asiyada iqtisadi artım azala, neftə tələbat da ona uyğun aşağı düşə bilər. Buna görə də "Bank of Amerika" gələn il üçün neftin qiymətinin 80 dollar ətrafında dəyişəcəyini proqnozlaşdırır.

❑ **DÜNYA, "Yeni Müsavat"**


RAİFE ELMAS

## PKK-nın axtarışda olan qadın terrorçusu öldürüldü

**Türkiyənin axtarışa verdiyi təhlükəli terrorçu Raife Elmas məhv edilib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, "Dicle Zafer" ləqəbi ilə tanınan PKK üzvü Türkiyə Hərbi Hava Qüvvələrinin Bingöl bölgəsində terrorçu düşərgələrini bombalaması nəticəsində zərərsizləşdirilib.



## 450000 manat oğurladı və tutuldu

**Sumqayıtda yerləşən MMC-lərin birinin mühasib otağındakı seyfin qapısının naməlum şəraitdə sındırılaraq oradan 450000 manat oğurlandığı barədə Sumqayıt Şəhər Polis İdarəsinə müraciət olunub.**

DİN-dən musavat.com-a daxil olan məlumata görə, həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən oğurluq hadisəsinin Sumqayıt sakini Rauf Nəbiyev tərəfindən törədilməsi müəyyən edilib və o, görülən zəruri tədbirlər nəticəsində saxlanılıb. Araşdırma zamanı məlum olub ki, saxlanılan şəxs qeyd edilən MMC-də təhlükəsizlik üzrə növbə rəisi işləyib. Bu səbəbdən o, seyfin saxlanıldığı otağın harada yerləşməsi, həmçinin içində nə qədər pul olması barədə məlumatlı olub. R.Nəbiyev istintaqa verdiyi ifadəsində oğurluq etdiyini etiraf edib.

Əməliyyat tədbirlərinin davamı olaraq R.Nəbiyevin seyfdən oğurladığı pulun əksər hissəsi onun yaşadığı evdən aşkar olunaraq maddi sübut kimi götürülüb və müvafiq protokol tərtib edilərək MMC-yə qaytarılıb.

Qeyd edilən faktla bağlı Sumqayıt Şəhər Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri davam etdirilir.

## 2-ci sinif şagirdi məktəbdə boğulub öldü

**Bakı şəhəri, Sabunçu rayonu 67 saylı məktəbdə ikinci sinif şagirdi dünyasını dəyişib.**

Unikal.org xəbər verir ki, hadisə tənəffüs zamanı yaşanıb. Xəlilov Sabir Adil oğlunun anginası olub. Yemək yeyən zaman müəlliminə yaxınlaşaraq boğulduğunu söyləyib. Məktəblinin tənəffüsdə içərisində sosiska olan çörək yeyərkən boğulduğu qeyd olunub. Bildirilib ki, 2011-ci il təvəllüdlü S. Xəlilov məktəbin II "ğ" sinfində təhsil alıb. Şagird özünü narahat hiss eden anda dərhal ona ilk tibbi yardım göstərilib, lakin həyatını xilas etmək mümkün olmayıb.

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

# 100-dən artıq hakim məhkəmə sistemindən kənarlaşdırılıb - səbəb...

**Məhkəmə-Hüquq Şurasının qərarları ilə 100-dən çox hakim vətəndaşların haqlı narazılığını doğuran nöqsan və pozuntulara yol verdiklərinə görə məhkəmə sistemindən kənarlaşdırılıb. O cümlədən korrupsiya, hüquq pozuntularına görə 35 hakim ciddi intizam məsuliyyətinə cəlb edilib.**



## Əliməmməd Nuriyev: "Son illərdə hakimlərin peşəkarlığının artırılması, ədalətli qərarların qəbulu üçün ciddi fəaliyyət aparılır"

Bu barədə "Qafqazinfo"ya Ədliyyə Nazirliyindən məlumat verilib.

Məhkəmə sistemindəki bu islahatlar müsbət dəyərləndirilir. Eyni zamanda bu islahatların davamlı olacağı qeyd edilir.

**Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev bildirdi ki, məhkəmə-hüquq islahatları davam etməkdədir:** "Bu islahatların həyata keçirilməsində Məhkəmə-Hüquq Şurasının çox əhəmiyyətli rolu var. Hakimlərin seçilib yerləşdirilməsi birbaşa onların səlahiyyətlərinə daxildir. Hakimlərlə bağlı korrupsiya və digər məsələlər də Məhkəmə-Hüquq Şurasının səlahiyyətindədir. Onların qəbul etdiyi qərarlara diqqət yetirsək görərik ki, etdikləri qanun pozuntularına, rüşvət aldıqlarına yaxud buna vasitəçi olduqlarına görə bir çox hakimlər vəzifələrindən uzaqlaşdırılıblar. Süründürməçilik, qanunsuz qərarların qəbulu ilə bağlı bu sistemdən kənarlaşdırılanlar da var. Belə islahatlar hakimlərin peşəkarlığına birbaşa təsir edən amillərdən biridir. Bildiyiniz kimi, bir neçə ildən bir hakimlərin qiymətləndirilməsi prosesi həyata keçirilir. Son illərdə hakimlərin peşəkarlığının artırılması, ədalətli qərarların qəbulu üçün ciddi fəaliyyət aparılır. Hakimlər üçün treninqlər də təşkil edilir. Test və müsahibə mərhələsindən keçib hakim olan şəxslər üçün təlimlər keçirilir. Bu təlimlər də Ədliyyə Nazirliyinin Hüquq Akademiyası tərəfindən aparılır. Ora peşəkar hakimlər cəlb olunur. Avropa Məhkəməsinin hakimləri olacaq hakim korpusu üçün təlimlər keçirlər. Bütün bunlar Məhkəmə-Hüquq Şurasının həyata keçirdiyi fəaliyyətlə bağlıdır. Mütəmadi olaraq Məhkəmə-Hüquq Şurası hakimlərin monitorinqini aparır. Bu da hakimlərə peşəkarlığını artırmağa, qiymətləndirmələrinə yeni-yeni imkanlar verir. Onların fəaliyyətlərində nöqsanlar aşkar olunursa, həmin nöqsanların aradan qaldırılmasına və o hakimlərin məsuliyyətə cəlb olunmalarına bu monitorinqlər ciddi təsir edir. Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə nazirimiz Fikrət Məmmədovun sözlərinə görə, yüzdən artıq hakim vəzifədən kənarlaşdırılıb, bəzi hakimlərin fəaliyyətinə korrupsiya pozuntularına görə xitam verilib. Yuxarı instansiyalarda hakim olanların aşağı instansiyalara dəyişdirilməsi halları da olub. Bir çox hakimlərin fəaliyyətlərində qüsurların qalması hələ də davam edir. Məhkəmə sisteminin müstəqilliyi çox vacibdir. Bu müstəqilliyin təmin olunması üçün də ədalətli qərarların qəbulu, ölkədə sosial ədalətin təmin edilməsi olduqca vacibdir. Məhkəmə hakimiyyəti hakimiyyətin qollarından biridir. Digər hakimiyyət qollarının səhvlərinin aşkar edilməsi məhz məhkəmə hakimiyyətinin səlahiyyətləri çərçivəsindədir. İşlərə baxarkən qanunazidd hərəkətlər üzə çıxan kimi buna müvafiq addımlar atırlar. Bu baxımdan məhkəmə hakimiyyətinin məsuliyyəti daha böyükdür. Mübahisələrin sonuncu həlli məhkəmə hakimiyyətidir. Son illərdə bu hakimiyyət ciddi tənqid obyektlərindən biri olub. Məhkəmə-Hüquq Şurasının son illərdə apardığı fəaliyyət məhkəmə hakimiyyətinin müstəqil olmasına, ədalətsiz qərarlarına qəbul edilməməsinə, məhkəmə sisteminin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə ciddi töhfələr verib. Bütün bunlar elə həyata keçirilir ki, məhkəmə hakimiyyətinin müstəqilliyinə xələl gəlməsin. Sadəcə, son qərarlar baş verən bəzi qanun pozuntuları, ədalətsizlik qərarların qəbulu və digər bu kimi məsələlərlə bağlıdır. Bunların da hər biri hakimlərin işlərinə müdaxilə olunmadan həyata keçirilib".



❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Banklarla bağlı mühüm dəyişiklik: Müşahidə Şurasının səlahiyyəti artırılır

## Əkrəm Həsənov: "Təklif edilən bu dəyişikliyi illərdir səsləndirirəm"



**Banklarla bağlı qanunvericilikdə mühüm bir dəyişiklik edilib. Belə ki, Azərbaycan banklarında müşahidə şuralarının səlahiyyətləri artırılır. Bu yenilik "Banklar haqqında" Qanuna dəyişikliklər layihəsində yer alır. Qanunun 25.15.1 maddəsinə edilən əlavəyə əsasən, Müşahidə Şurası Bankın Audit Komitəsinin üzvlərini vəzifəyə təyin etmək və vəzifədən azad etmək, komitənin əsasnaməsini təsdiq etmək səlahiyyətinə də malik olacaq. Qeyd edək ki, müvafiq qanun layihəsi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sonuncu iclasında müzakirə olunub.**

"Yeni Müsavat"a açıqlamasında sözügedən dəyişikliyə münasibət bildirən **iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov** bunun müsbət bir addım olduğunu vurğuladı: "Təklif edilən bu dəyişikliyi mən illərdir səsləndirirəm. Hətta vaxtilə 2004-cü ildə Mərkəzi Bank tərəfindən "Banklar haqqında" Qanun hazırlananda mən həmin qurumda işləyirdim, qanunun hazırlanması ilə bağlı işçi qrupun üzvlərindən biri idim. O zaman mən xarici təcrübəyə əsaslanaraq bu təklifi vermişdim ki, Audit Komitəsinin əsasnaməsinin təsdiqetmə səlahiyyəti, bu komitənin üzvlərinin təyin edilməsi və vəzifədən azad edilməsi səlahiyyəti Səhmdarların Ümumi Yığıncağında yox, Müşahidə Şurasında olmalıdır. Çünki xarici təcrübə belədir. Amma nədənsə o zaman Mərkəzi Bankda başqa cür qərar qəbul etdilər. Bu da SSRİ-dən qalma bir yanaşmadır".

**Ə.Həsənovun sözlərinə görə, 2004-cü ildən indiyə kimi bankların dörd idarəetmə orqanı var:** "Bu Səhmdarların Ümumi Yığıncağı, Müşahidə Şurası, Audit Komitəsi və İdarə Heyətidir. Dünyanın heç bir ölkəsində belə idarəetmə strukturu yoxdur. Səhmdarların Ümumi Yığıncağı bank sahiblərinin birliyidir. Kimin bankda səhmi varsa, həmin orqanın üzvüdür. Müşahidə Şurası nəzarətedici orqandır. İdarə Heyəti isə icraedici orqandır. Audit Komitəsi isə bütün dünyada Müşahidə Şurasına maliyyə məsələləri üzrə və digər məsələlər üzrə nəzarətin həyata keçirilməsində köməklik göstərən bir orqandır. Buna görə də dünyanın hər yerində bankın Audit Komitəsini Müşahidə Şurası təşkil edir, təyin edir, azad edir və sair. Bizdə isə Audit Komitəsi Müşahidə Şurası kimi tam müstəqil bir qurumdur. Onu da Səhmdarların Ümumi Yığıncağı təyin edir və bu da Audit Komitəsinin mahiyyətinə ziddir. Onun formal bir quruma çevrilməsinə səbəb olub. Bütün banklarda bu iki qurumun statusu bərabərdir. Halbuki belə olmamalıdır".

**İqtisadçı hesab edir ki, bu dəyişiklikdən sonra Audit Komitəsinin fəaliyyəti daha effektiv olacaq:** "Hələ 2011-ci ildə "Azərbaycanın bank hüququ" kitabını yazarkən də mən bu sistemi kəskin tənqid etmişəm və dəyişməli olduğunu bildirmişəm. Həmçinin dövlət qurumlarının müəyyən layihələrində iştirak edərkən də daim bu təklifi vermişəm. Çox şadam ki, üstündən 14 il keçdikdən sonra nəhayət ki, bu qanuna dəyişiklik edildi. Bunu Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirib. Bütün dünyada olduğu kimi bizdə də belə olmalıdır. Bu gün banklarda formal quruma çevrilən Audit Komitəsi artıq daha effektiv fəaliyyət göstərəcək. O baxımdan mən bu dəyişikliyi dəstəkləyirəm və hesab edirəm ki, onu tezliklə qəbul etmək lazımdır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# İlham Əliyev "ADEX-2018" sərgisi ilə tanış oldu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan üçüncü "ADEX-2018" Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub.**




Virtualaz.org bildirir ki, müdafiə naziri Zakir Həsənov və müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev dövlət başçısına sərgi barədə məlumat veriblər.

Bildirilib ki, "ADEX-2018" sərgisi dünyanın 29 ölkəsini təmsil edən 224 şirkəti bir araya gətirib. Sərginin iştirakçıları olan bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyalarının sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə (41şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. Pavilyonlarda müasir silah və texnikalar nümayiş olunur.

Qeyd edilib ki, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) sərginin fəal iştirakçılarıdır.

Burada peşəkarlar ölkənin müdafiə sənayesinin yenilikləri, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcud və inkişaf edən potensialı ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər. Bundan başqa, bu il Azərbaycandan "Caspian Ship Building Company", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA-nın Yüksək Texnologiyalar Parkı (YTP), "Vitta" elmi-texniki şirkəti və Hərbi Hava Qüvvələrinin silah və zirehli texnikaya texniki baxış üzrə servis mərkəzi sərgidə ilk dəfə iştirak edir.

Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış olub.




# Azərbaycanda mərmi atan yeni snayper silahı istehsal edilib

**Azərbaycanda mərmi atan yeni snayper silahı istehsal olunub.**

"Trend"in məlumatına görə, 23x115 mm ölçülü silahın çəkisi 34 kiloqramdır. Silahın atdığı mərmi 6 kilometr uzağa gedir. Həmçinin 2 kilometri dəqiq vura bilir. Silah "ADEX-2018" 3-cü Azərbaycan Beynəlxalq müdafiə sərgisində ilk dəfə nümayişə çıxarılıb. Yaxın vaxtlarda silah sınaqdan keçiriləndən sonra Azərbaycan Silahlı Qüvvələrində istifadəyə veriləcək.

# Fransa Azərbaycana döyüş gəmiləri təklif edir

**"Naval Group" şirkətinin timsalında Fransa sentyabrın 25-dən 27-nə qədər Azərbaycanda keçirilən "ADEX 2018" sərgisində özünün mühafizə gəmisinin (OPV 90) layihəsini təqdim edib.**

Yerli KİV-lərin yazdığına görə, Azərbaycan gəmilərin, raketlərin və mina əleyhinə avadanlığın alınması ilə əlaqədar Fransa ilə artıq danışıqlara başlayıb.

Fransa Azərbaycanı inandırmağa çalışır ki, 87 metr uzunluğunda OPV 90 yaxşı variantdır, belə ki, dənizdə hərəkətə nəzarət, dəniz ehtiyatlarının mühafizəsi, axtarış-xilasetmə əməliyyatları, həmçinin humanitar yardımın göstərilməsi kimi mülki və hərbi vəzifələrin yerinə yetirilməsinə qadirdir.

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

**Rusiyanın TASS rəsmi xəbər agentliyi ölkəmizin son illərdə Rusiyadan aldığı silahların siyahısını dərc edib.**

# Azərbaycanın Rusiyadan aldığı silahlar - tam siyahı

## Rusiyadan daha 100 ədəd T-90S tankının və 12 Mi-35M vertolyotunun alınması barədə müqavilələr isə hələ icra edilməyib





Agentlik qeyd edir ki, Azərbaycan Rusiya silahlarının ən iri idxalçılarından biridir. Stokholmdakı sülh problemləri institutu SIRRI 2006-2016-cı illərdə Rusiyanın silah ixracının 22 faizinin Azərbaycanın payına düşdüyünü bildirir.

SSRİ-nin dağılmasından, yəni 1991-ci ildən 2005-ci ilə qədər Azərbaycana Rusiya silahları ixrac edilməmişdi. Və 2005-ci ildən Rusiya silahlarının və hərbi texnikasının Azərbaycana sözün əsl mənasında axını başlayıb.(virtualaz.org)

TASS bildirir ki, 2005-2010-cu illərdə Azərbaycanın güc strukturları üçün yeni vertolyotlar alınıb: Gömrük Komitəsi üçün bir Mi-172 vertolyotu, FHN üçün üç Mi-171B vertolyotu, daha üç belə vertolyot isə DİN üçün sifariş verilib. 2008-ci ildə FHN Rusiyadan Be-200ÇS amfibiya-təyyarəsi alıb, 2010-cu ildə isə iki Ka-32A əldə edilib.

2007-ci ildə Azərbaycan Rusiya Müdafiə Nazirliyinin balansından 62 T-72B tankı, 4 zirehli remont-təxliyyə maşını BREM-1, habelə 6 “Msta-B” (152 mm) yedəklənən qaubitsasını alıb. 2008-2010-cu illərdə Rusiyadan 70 BTR-82A yeni zirehli transportyorları əldə olunub, habelə çoxsaylı “KamAZ” avtomobilləri alınıb. 2010-cu ildə bağlanmış müqavilə əsasında Rusiya Azərbaycana 100 “Kornet-E” tank əleyhinə raket kompleksləri satıb.

2009-cu ildə Azərbaycan Rusiyadan iki diviziyon S-300 PMU “Favorit” zenit-raket kompleksləri almaq üçün müqavilə bağlayıb. Bu komplekslər 2010-2011-ci illərdə çatdırılıb.

Bunlardan əlavə, Azərbaycan tərəfi 2013-2018-ci illərdə Rusiyadan quru qoşunları üçün xeyli miqdarda yeni hərbi texnika alıb. Bunlar aşağıdakılardır:

-100 T-90S əsas döyüş tankı;

-118 BMP-3 piyada döyüş maşını;

-230 ədəd BTR-82A;

-166 artilleriya sistemi, o cümlədən 152 millimetrlik 18 “Msta-S” özüyeriyən qaubitsaları, 18 özüyeriyən “Vena” (120 mm) qaubitsaları, 18 “Smerç” reaktiv yaylım atəşi sistemi, 24 TOS-1A “Solntspyok” ağır odsaçan sistemləri .

Mütəxəssislər bu müqavilələr portfelinin ümumi həcminin 1 milyard dollar olduğunu qeyd ediblər. Həmin paketə habelə iki diviziyon “Xrizantema-S” tank əleyhinə özüyeriyən raket kompleksi, 152 millimetrlik yedəklənən “Msta-B” qaubitsaları, 120 millimetrlik, daşınan “Sani” minaatanları, avtomobil nəqliyyatı, mühəndis avadanlıqları, zirehli təmir-təxliyyə maşını BREM-1M və BREM-L, döyüş sursatları da daxil olub.

Ayrıca müqavilə üzrə 2010-cu ildə Azərbaycan Rusiyadan Dövlət Sərhəd Xidməti üçün 24 Mi-35M döyüş vertolyotu, (2011-2013-cü illərdə çatdırılıb, ümumi dəyəri 360 milyon dollar), 71 çoxməqsədli Mi-17-1B vertolyotu (40 ədədi Hərbi Hava Qüvvələri, 20-i sərhəd qoşunları, 6-ı Dövlət Mühafizə Xidməti, 5-i Daxili İşlər Nazirliyi üçün) alıb.

Bundan əlavə, həmin il Azərbaycan Rusiyadan hava hücumundan müdafiə sistemləri sifariş edib. Həmin sifariş əsasında 2011-2012-ci illərdə Azərbaycan Rusiyadan 300 daşınan zenit-raket kompleksi “İqla-S” və onlara aid 1500 raket alıb. KİV-lər 2014-cü ildə Azərbaycana kiçik mənzilli “Tor-M2E” zenit-raket komplekslərinin iki batareyasının göndərildiyini yazıblar, amma digər məlumata görə, bu müqavilə reallaşmayıb.

2010-cu ildə tərəflər Azərbaycanda lisenziya əsasında birgə silah istehsalı haqda razılığa gəliblər. Bu razılığa əsasən 2011-2021-ci illərdə Azərbaycanda 120 min AK-74M avtomatı istehsal olunmalıdır.

2011-ci ildə Azərbaycan ordusunun BMP-1 və BMP-2 zirehli döyüş maşınları parkının modernləşdirilməsinə dair müqavilə bağlanıb. Həmin müqaviləyə əsasən maşınlar “Berejok” döyüş modulu və “Kornet-E” tank əleyhinə raketləri ilə təchiz edilməlidir.

2014-cü ildə Azərbaycan hərbi-texniki əməkdaşlıq üzrə Rusiya federal xidmətinə bir diviziyon sahil mənzilli “Bal-E” raket kompleksini almaq üçün sorğu verib. KİV-lərin məlumatlarına əsasən həmin müqavilə hələ reallaşmayıb, amma müzakirələr gedir. Habelə Rusiyadan daha 100 ədəd T-90S tankının və 12 Mi-35M vertolyotunun alınması barədə müqavilələr də hələ icra edilməyib.

# Tovuzda tikilən dəryaça ümidləri doğrultmayıb

## “Meliorasiya və Su Təsərrüfatı” ASC həsrətlə su gözləyən, amma ümidləri suya düşən sakinlərin suallarına cavab vermir

**İki il əvvəl Tovuz rayonunda Tovuzçay və Axıncıçay üzərində inşa olunan su anbarı-dəryaça istifadəyə verilib. O zaman, elə ondan əvvəlki az qala 3 onilliyə çatan tikinti dövründə rayonun bir sıra kəndlərinin sakinləri dəryaçanın onların su təchizatının yaxşılaşmasına səbəb olacağını düşünürdülər.**




Lakin bu günlərdə redaksiyamıza daxil olan məlumat göstərir ki, bu gözləntilər özünü doğrultmayıb. Belə ki, rayonun Yuxarı Öysüzlü kəndinin sakinləri dəryaçadan onlara çəkilən su xəttinin açıldığı gündən boş olmasından şikayətçidilər. İrihəcmli boru xətti ilə cəmi bir dəfə su vurulub, onda da boru partlayıb: “Uzun illərdir susuzluqdan əziyyət çəkirik. Ümidimiz bu göldən çəkiləcək suya idi. İki ildir göl işə salınıb, amma düz-əməlli su ilə dolduğu yoxdur. Üstəlik, bizə su vermək üçün çəkilən xəttə cəmi bir dəfə su verildiyi oldu”.

Xatırladaq ki, Tovuzçay su dəryaçasının tikintisi hələ Sovet dövründən planlaşdırılırdı. Məqsəd ətrafda yüksək əraziləri, həmçinin aşağı axarda yerləşən kəndləri su ilə təmin etmək idi. “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadənin dəryaçanın açılışı zamanı verdiyi məlumata görə, anbarın tikintisinə 1982-ci ildə “Azərdövlətsulayihə” İnstitutu tərəfindən hazırlanan layihə əsasında 1986-cı ildə başlanılıb. Lakin vəsait çatışmazlığı üzündən tikinti işləri 1992-ci ildən dayandırılıb. İnşası yarımçıq qalan Tovuzçay su anbarının tikintisinin davam etdirilməsi Azərbaycan Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilən və 2004-2008-ci illəri əhatə edən “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na və 2005-ci il 14 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunan “Tədbirlər Planı”na daxil edilib. 2006-cı ildə isə tikinti işlərinə başlanılıb. Ümumi su tutumu 20 milyon kubmetr, faydalı həcmi 18 milyon kubmetr olan Tovuzçay su anbarının su hövzəsinin sahəsi 160 hektar, uzunluğu 2,6 kilometrdir. Layihəyə uyğun olaraq, anbarda suburaxma qabiliyyəti saniyədə 250 kubmetr və uzunluğu 731 metr olan qəza sutullayıcısı, maksimum suburaxma qabiliyyəti saniyədə 125 kubmetr olan dəmir-beton borulu qülləli suburaxıcı, saniyədə 6 kubmetr suvarma suyunun verilməsi üçün uzunluğu 468,8 metr olan nov-kanal inşa olunub. Su anbarının inşası zamanı tarixi abidələrin mühafizəsi, köçürülməsi, avtomobil yolunun və körpülərin tikintisi, eləcə də digər tədbirlər həyata keçirilib. Belə ki, Qazqulu qəbiristanlığı, Şərif Sultan və Məhəmməd-Hüseyn Sultan türbələri köçürülüb. XVII əsr memarlıq abidəsi olan Sultan körpüsünün mühafizəsi üçün uzunluğu 344 metr olan torpaq damba tikilib. Həmçinin Vahidli kənd qəbiristanlığının mühafizəsi məqsədilə suyığıcı kanalın və mühafizə dambasının tikintisi həyata keçirilib: “Görülən mühüm işlərdən biri də Tovuz və Şəmkir rayonlarının mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə bu sahələri suvarma suyu ilə təmin edən Ağstafaçay sağ sahil kanalına əlavə su verilməsi üçün sərfi saniyədə 1,5 kubmetr, uzunluğu 7004 metr olan polad boru kəmərinin tikintisidir”.

ASC rəhbərinin dediklərindən aydın olub ki, “Tovuzçay su anbarının tikintisinin davam etdirilməsi” layihəsində nəzərdə tutulan tədbirlərin tam başa çatdırılması nəticəsində Tovuzda 16886 hektar, Şəmkirdə isə 2939 hektar olmaqla ümumilikdə 19825 hektar mövcud torpaq sahələrinin su təminatı yaxşılaşdırılacaq. Eyni zamanda Tovuz rayonunda 300 hektar yeni suvarılan torpaqlar suvarma suyu ilə təmin olunacaq: Layihədə anbarda yığılan suyun Tovuz və Şəmkir rayonlarının əkin sahələrinin təminatının yaxşılaşdırılması üçün bu sahələri suvarma suyu ilə təmin edən Ağstafaçay sağ sahil kanalına öz axını ilə və Xunamarx kanalına isə su verilməsi nəzərdə tutulub ki, bu işlər də tam başa çatdırılıb.

**Məsələ burasındadır ki, real vəziyyət cənab Əhmədzadənin 2016-cı ildə verdiyi yuxarıdakı məlumatdan kəskin fərqlənir. Yerli sakinlərin dediklərinə görə, anbarın tikintisində keyfiyyətsiz materiallardan istifadə olunduğu üçün suyu saxlamır. Nəticədə anbardan su vurmaq üçün qoyulan nasoslara su qalxmır:** “Yayın ən qızmar vaxtlarında göldə suyun miqdarı elə olur ki, nasoslara su çatmır. Deyirlər, gölün dibi suyu sızdırır, ona görə də yığılan su qısa müddətə axıb gedir. Biz indi bilmirik dərdimizi kimə deyək”...

Bir məsələni də bildirək ki, dəryaçanın inşasına on milyonlarla manat dövlət vəsaiti sərf olunub. Ümumilikdə tikintiyə nə qədər vəsait sərf edildiyi ASC tərəfindən açıqlanmır. Lakin 2007-ci ildə rəsmi mətbuatda yayılan məlumatda dəryaçanın tikintisinə ilkin olaraq 28 milyon dollar ayrıldığı qeyd olunub. 2013-cü ildə isə mətbuatda Tovuz Rayon İcra Hakimiyyətinə istinadən dövlət büdcəsindən 8,6 milyon manat vəsaitin dəryaçanın tikintisi məqsədilə ayrıldığına dair məlumat yer alıb. Qeyri-rəsmi məlumatlarda bu işə 70-80 milyon manatın sərf olunduğu bildirilir. İctimaiyyət üçün açıq olmalı olan dəqiq məlumatı isə sifarişçi qurum olan Meliorasiya və Su Təsərrüfatı ASC açıqlamır. Bu qədər böyük məbləğə başa gələn anbardan ətraf ərazidə yaşayaraq suya həsrət qalan insanların yararlana bilməməsi, ümumiyyətlə, bu dəryaçanın iş əmsalının çox aşağı olması düzülməzdir. Güman edirik ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin əlaqədar şəxsləri Tovuz sakinlərinin şikayətinə biganə qalmayaraq, problemin həllinə nail olacaqlar. Aşağı və Yuxarı Öysüzlü kəndlərindəki dağlardan keçərək uzanan bir neçə kilometrlik boru xəttinə nə zamansa su vurulacaq. Yaxşı olardı ki, bu dəryaçada görülən işlərlə bağlı aidiyyəti qurumlar audit keçirsinlər. O zaman projenin bu cür uğursuz olmasının gerçək səbəbləri üzə çıxacaq.

**Yazıda göstərilənlərlə bağlı “Meliorasiya və Su Təsərrüfatı” ASC-nin mövqeyini dinləməyə, qəzetdə çap etməyə hazırıq.**

**❑ İqtisadiyyat şöbəsi, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

# "O halda növbədənkənar parlament seçkiləri keçirilə bilər"

## Siyavuş Novruzov: "50 min depozit qoyulması ilə bağlı tələb səhvdir, onun heç bir iqtisadi göstəricisi yoxdur"

**"Baxış bucağı"**

**YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovla müsahibəmizdə aktual olan bir sıra məsələlərdən danışdıq.**

***- Siyavuş bəy, parlamentin payız sessiyasına necə hazırlaşırsınız?***

- Təbii ki, hazırlıq gedir. Bu il ölkə və region üçün olduqca vacib il olub. Həm Xalq Cümhuriyyətinin, həm parlamentin 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilib. Elə bu yaxınlarda parlamentin 100 illiyi ilə əlaqədar 40-dan artıq ölkədən nümayəndə gəlmişdi, böyük bir tədbir keçirildi. 12 ölkənin parlament sədri, 16 ölkənin parlament sədrinin müavini, 16 ölkədən dostluq qrupunun rəhbərləri, komitə sədrləri, 9 beynəlxalq təşkilatdan nümayəndələr gəlmişdi. Hərtərəfli şəkildə fikir mübadiləsi aparıldı. Həmçinin yeni qanunların qəbul olunması məsələsi gündəmə gəlir. Yəni həyat və regiondakı vəziyyət dəyişdikcə qanunlara da müvafiq əlavə və dəyişikliklərə ehtiyac yaranır. Bu baxımdan da payız sessiyasında hər bir komitə özünün qanunvericilik təşəbbüsü ilə müxtəlif məsələləri ortaya çıxarır və komitədə təsdiqləndən sonra parlamentin gündəliyinə təqdim olunacaq.

***- Parlamentdə Qarabağ danışıqlarının keçirilməsi ilə bağlı ənənəvi təklif yenə də səslənməkdədir. Azərbaycanın ən ciddi problemi Milli Məclisdə müzakirəyə çıxarıla bilərmi?***

- Bir dəfə 2001-ci ildə belə bir müzakirə keçirildi, ümummilli lider tərəfindən müzakirələr aparıldı. Bütün ictimaiyyət, parlamentdə təmsil olunan, olunmayan siyasi partiyaları, QHT-lər, beynəlxalq qurumlar, ölkə ziyalıları iştirak edirdi. Orada təklif olundu ki, hər kəs bu münaqişənin həlli ilə bağlı özünün yazılı şəkildə təkliflərini təqdim etsin. Sonradan mən cidd-cəhdlə maraqlandım. Bir qrup ziyalılar və digərləri qeyd etmişdilər ki, ümummilli liderin qəbul etdiyi qərardan yaxşısını heç kəs qəbul edə bilməz. Digərləri, qatı müxalifətdə olanlar və başqaları isə bir səhifə də olsun yazılı şəkildə bu münaqişənin həlli, yaxud aparılan danışıqlarla, danışıqların formatı ilə bağlı hər hansı bir təklif verməmişdilər. O baxımdan Qarabağ məsələsi elə bir məsələdir ki, onunla bağlı tək bir parlament iclası kifayət etmir, gündəlik bununla məşğul olurlar, özü də bütün strukturlar. Hansı struktura nəzər salsaq, görərik ki, orada ilboyu Qarabağ müzakirələri gedir.

***- Prezidentin mövqeyi bəllidir və bütün səviyyələrdə keçirdiyi görüşlərdə Qarabağla bağlı prinsipial mövqeyini bəyan edir. Bu mənada parlamentdəki müzakirələr və qəbul olunan hər hansı qərar ümumi işin xeyrinə olardı, elə deyilmi?***

- Təbii ki, parlament prezidentin mövqeyini, aparılan danışıqları və qəbul olunan qərarları dəstəkləyir. Əgər cənab prezident, Ali Baş Komandan tərəfindən hər hansı bir qərar qəbul olunacaqsa, parlament buna tam öz dəstəyini verəcək.

***- Sentyabrın 26-da Rusiya prezidenti Vladimir Putin Bakıya səfər edəcək. Necə bilirsiniz, Rusiya ilə hazırkı münasibətlər Qarabağı işğaldan azad etməyimizə təkan verəcəkmi?***

- Bu münasibətlərin inkişafı ölkəmiz üçün vacib məsələdir. Rusiya bu gün regionun aparıcı, ən iri dövlətlərindən biridir. Azərbaycanla Rusiya arasındakı münasibətlər yüksələn xətlə inkişaf edib. Bu, həm prezidentlər, həm xalqlar, həm də dövlətlər arasında olan münasibətlərdir. Doğrudan da vaxtilə biz necə düzgün yol seçmişiksə, o yolla bu proseslərin davam etdirilməsi məqsədəuyğundur və bu əlaqələr daha da dərinləşməlidir. Təbii ki, Rusiyanın regionda olan münaqişələrə təsiri çox güclüdür. Bu təsir nəticəsində də bu münaqişələrin düzgün, ədalətli həll olunmasına yaxından dəstək verə bilər. O baxımdan da bu cür münasibətlərin qurulması və inkişafı, iqtisadi əlaqələrin genişləndirilməsi, iki günlük səfərdə biznes-forumların keçirilməsi, bir sıra müqavilələrin imzalanması nəzərdə tutulub ki, bunlar hər iki ölkə üçün vacib amillərdir. Burada ölkənin böyüklüyündən, yaxud kiçikliyindən söhbət getmir. Bu gün Rusiyaya qarşı dünyada embarqoların tətbiq olunduğu bir şəraitdə Azərbaycan bu məsələlərə qarışmadı, əksinə, orada ərzaq təhlükəsizliyi ilə bağlı problemlər yarananda özünün daxili imkanları hesabına bacardığı qədər öz köməkliyini göstərdi, digər dövlətlərdən fərqli olaraq. O cümlədən Rusiya da Azərbaycanla bağlı bütün məsələlərdə öz köməkliyini, yardımını göstərir və hesab edirəm ki, bundan sonra da göstərəcək. Bu yaxınlarda Gürcüstanda prezident seçkiləri keçiriləcək. Bununla bağlı verilişlərə baxırdım, məni namizədlərdən birinin - Burcanadzenin çıxışı çox maraqlandırdı. Demək olar ki, Rusiya ilə münasibətlərin əvvəlki vəziyyətə qayıtması ilə bağlı öz fikirlərini söyləyirdi. Hansı ki, Şevardnadze dövründəki münasibətlərə qayıtmaq istədiyini bildirirdi və ondan sonrakı dövrü o, itirilmiş illər kimi qeyd edirdi. Qulaq asdım və bir daha əmin oldum ki, biz öz siyasətimizi çox düzgün qurmuşuq.

***- Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ilə bağlı iddialar var. Yaxud heç olmasa 6 boş yerə seçkilərin keçiriləcəyi bildirilir. Sizdəki məlumatlar nədən ibarətdir?***

- Parlament seçkilərinin keçirilməsi Azərbaycan Konstitusiyası ilə müəyyən edilir. Parlament bir neçə halda, bir neçə dəfə hökumətin hesabatı, yaxud baş nazir vəzifəsinə təqdim olunan şəxsin namizədliyinin qəbul olunmaması halında, yaxud parlament özü-özünü buraxırsa, o halda növbədənkənar parlament seçkiləri keçirilə bilər. Qalan hallarda isə konkret vaxt müddət konstitusiyada göstərilib. Əgər növbədənkənar parlament seçkiləri keçirilməli olsa, ya bu hallardan biri baş verməli, ya da referendum keçirilməli, konstitusiyada dəyişiklik edilməlidir.

***- Belə çıxır ki, siz də konkret olaraq seçkinin olub-olmayacağını dəqiq bilmirsiniz?***

- Mən prosedur qaydalarını qeyd etdim. Boş qalmış yerlərə seçkilər isə Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə müəyyən olunur. Burada da açıq şəkildə göstərilib ki, parlamentə boş qalan yerlərə seçkilərin keçirilməsi Azərbaycan prezidenti tərəfindən elan olunur.

***-Siz adətən deyirsiniz ki, YAP seçkilərə bir il qalmış hazırlıqlara başlayır. Bu mənada indi hansı seçkiyə hazırlaşırsınız?***

- Biz hələ ki bələdiyyə seçkilərinə hazırlıq görürük, ilin sonunda prosesə start verəcəyik. Parlament seçkiləri ilə bağlı hələlik hazırlıq işləri yoxdur.

***- Bu günlərdə Bakıda sel-daşqınların olması geniş müzakirələrə səbəb oldu. Siz bu vəziyyət barədə nə deyə bilərsiniz?***

- Dünyanın hər yerində, ABŞ, Yaponiya, Çin, Avropa ölkələrində belə hallar baş verir. Normadan artıq yağıntı düşür, ekoloji tarazlıq pozulub və bunun nəticəsində yağıntılar olur. Bizdə bəzi insanlar bu cür halları faciə kimi qələmə verməyə çalışırlar. Elə ölkələr olur ki, daşqınlar nəticəsində 8-10 nəfər dünyasını dəyişir. Allaha şükür ki, bizdə bu hallar baş verməyib. Normadan artıq yağış yağıb, yaxud səhlənkarlıq nəticəsində su-kanalizasiya sistemində problem yaranıb. Bunu da qloballaşdırıb, şişirdib faciə kimi təqdim etmək olmaz. Çünki dünyada təbii fəlakətin qarşısını hələ heç kəs ala bilməyib. Ən yüksək texnologiyalarla inkişaf edən Yaponiyadır,



**"Məscidə də getdim, bu aksiyaların hamısında iştirak da etdik"**

bu ölkə də onun qarşısını ala bilmədi.

***- Siyavuş bəy, Məhərrəmlik ayında söhbət edirik. Siz də komitə sədrisiniz. Yəqin ki, Aşura günü məscidə getdiniz...***

- Məscidə də getdim, bu aksiyaların hamısında iştirak da etdik. Ondan öncə Azərbaycanın bir sıra rayonlarında görüşlər keçirdik, dindarları, ziyalıları topladıq. Bu mərasimlərin dini əhəmiyyəti və düzgün istiqamətləri haqqında Dini Komitə və Qafqaz Müsəlmanları İdarəsi ilə, yerlərdəki məscidlərin axundu, imamı ilə birlikdə insanlarla izahat işləri apardıq. Bildirildi ki, dinə zidd olan, dində olmayan, hansısa ölkələrdən ixrac olunan addımları atmaq olmaz, bu, qadağandır və sırf Quranın, şəriətin müəyyən etdiyi yolla insanlar istədiyi dini ayinləri yerinə yetirə bilərlər. Bu baxımdan gördüyünüz kimi, Azərbaycanda bu məsələlər tam qaydasındadır.

***- Hakim komandadakı dəyişikliklər hər zaman gündəmdə olur. Növbəti dəyişikliklər gözləniləndirmi?***

- Bu dəyişikliklər icra sisteminə aiddir, bu strukturun başında cənab prezident durur. Odur ki, bu məsələ sırf cənab prezidentin səlahiyyətinə aiddir. Kim yaxşı işləyirsə, daha da irəli çəkilir, işində nöqsanlara yol verirsə, tutduğu vəzifədən azad olunur, yerinə başqası təyin edilir.

***- Dollar kreditləri ilə bağlı Konstitusiya Məhkəməsinin qərarını siz necə qarşıladınız?***

- Bu qərarın tam mahiyyəti ilə yaxından tanış deyiləm. Amma ümumiyyətlə, kreditlər məsələsinə həmişə dövlət büdcəsi ilə bağlı müzakirələrdə baxmışıq, yəqin ki, budəfəki büdcə müzakirələrində də bu məsələ diqqətimizdə olacaq. Ən əsas şərt vətəndaşdır, vətəndaşın hüquqları birinci növbədə qorunmalıdır.

***- Amma belə görünür ki, budəfəki qərar vətəndaşı razı salmayıb. Dollar kreditləri köhnə deyil, yeni kursla qaytarılmalıdır.***

- Mülkiyyətin formaları mövcuddur. Hər bir mülkiyyət qorunan mülkiyyətdir, şəxsi mülkiyyət də, dövlət mülkiyyəti də, özəl mülkiyyət də. O baxımdan da qəbul olunan qərarda mülkiyyət formalarının hər bir tərəfi nəzərə alınmalıdır ki, ortaq nöqtə tapılsın.

***- Konkretləşdirsək?***

- Bilirsiniz, özəl banklar var ki, bu dövr ərzində kifayət qədər pul qazanıblar. Məsələn, dollarla depoziti 3 faizə götürürlər, amma krediti 11-12 faizə verirlər. Uzun illər ərzində bundan banklar qazanıb. Özəl banklar indi bunu dövlətin üstünə yükləməməlidir, özləri də məsuliyyətlərini dərk etməlidir və ortaya çıxmalıdırlar. İkinci tərəfdən, vətəndaşlarla bağlı fikrimi bildirim. Vətəndaş var ki, bu krediti zərurətdən götürüb. Deməli, o nəzərə alınmalıdır, bu, böyük təhlilə ehtiyac olan məsələdir. Kredit götürüb ki, iş yerləri açsın, fermer təsərrüfatı yaratsın. Biri də kefdən kredit götürüb ki, 100 minlik maşın alsın. Bununla digər vətəndaş tərəzinin eyni gözünə qoyula bilməz. O gəlib zəhmət çəkməli, həmin pulu ödəməlidir. Deyir "yağmadı yağış, bitmədi qamış". Tutaq ki, quraqlıq olub, yaxud təsərrüfatına xəstəlik düşüb və nəticədə krediti qaytara bilmirsə, bunlar sığortalanmalı və nəzərə alınmalıdır. Bank da buna güzəştə getməlidir. Ancaq kim ki, maşınını dəyişib, daha bahalısını sürmək istəyib, bunun üçün kredit götürüb, zəhmət çəksin, gedib kreditini ödəsin! Biz təhlillər aparmışıq, Azərbaycanda kreditlərin böyük hissəsi, 50 faizindən çoxu məhz ikinci hissəyə aiddir. Əmək haqqının miqdarına, dolanışıq səviyyəsinə baxmayaraq, bəhsə girib daha yaxşı maşın almaq istəyib. Burada əhalinin bütün təbəqələrinə aid olan şəxslər var. Gedib maşın alıb, banka girov qoyub, indi də bankla üz-üzə qalıb.

***- Valyutadəyişmə məntəqələri ilə bağlı qərar verilsə də, məsələ həllini tapmır. Bu barədə nə deyə bilərsiniz?***

- Bu, vacib məsələdir. Mən də bu məsələnin həllinin tərəfdarıyam. Onların bağlanması da səhv idi. Valyutadəyişmə məntəqələri açılmalıdır. İlk növbədə bu, iş yeri idi. 10 minlərlə insan çalışırdı. Elə Bakının özündə 3 mindən artıq belə məntəqələr var idi, hərəsində 2-3 nəfər çalışırdısa, bu, 3 ailənin dolanışığı demək idi. Biz keçən dəfə büdcədə də məsələ qaldırdıq, yenə buna diqqət çəkəcəyik ki, problem həllini tapmalıdır. Həm vətəndaşın rahatlığı, həm turizmin inkişafı, həmçinin də yeni iş yerləri olaraq məsələnin həllinə ehtiyac var. 50 min depozit qoyulması ilə bağlı tələb də səhvdir, onun heç bir iqtisadi göstəricisi yoxdur. Lisenziyanı alır, gətirib pulunu manatla verir, dollarını götürüb gedir. Bu vəsaiti yandıracaq, ya ucuz verəcək, bu, artıq həmin şəxsin problemidir.

***- Ayın sonunda Qarabağ mitinqinin keçirilməsi planlaşdırılır. Sizin bu aksiyaya münasibətiniz necədir?***

- Qarabağ Komitəsi bu məsələni qaldırıb və mütəmadi olaraq həmişə diqqət mərkəzində saxlayır. Bu, artıq onların nizamnamə tələblərinə daxil olan məsələdir.

***- Siz həmin mitinqə qatıla bilərsiniz?***

- Biz bütün mətbuatda, internet mediasında mövqeyimizi bildiririk, milyonlarla insan bizim mövqeyimizlə tanış olur. İndi ola bilsin orada 3-5 min, ya ondan çox insan iştirak edəcək.

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**



# Mey reytinqinin autsayderi

Samir SARI

**İnternet resurslarında bir reytinq cədvəli yayılıb, ölkə olaraq sonuncu yerdəyik, adam bilmir qürur duysun, yoxsa xəcalət çəksin.**

Cədvəl keçmiş SSRİ respublikalarında nə qədər spirtli içki içildiyini adam başına, daha dəqiqi, adam mədəsinə düşən litrajla əks etdirir. Məlum olur ki, biz ortalama ildə 800 qram içki içirik (litr düzəlmir, a kişi).

Birinci yerdə... yoox, Rusiya deyil. Rusiyanın adı çıxıbmış. Heç olduqca keyfiyyətli araqlar istehsal edən Ukrayna da başda deyil.

Birincilik Moldovadadır. Arıq canıyla bu ölkə nə qədər şərab istehsal və istemal edirmiş. İldə adam boğazına 15.2 litr. Məlumdur, moldovanların yaxşı üzüm bağları, əla şərab zavodları var. Belə çıxır ki, ordan çaxırı çəkirlər, bir xeylisini özləri içir, boğazlarından artanı, yerdə qalanını isə xarici ölkələrə satırlar.

Ona qalsa bizim kənddə də iri şərab zavodu vardı, ildə 10 min ton şərab istehsal olunurdu, nəinki bir kəndin, hətta rayonun və ölkənin yarısının şərab tələbatını ödəyə bilərdi. Amma denən, bir kimsə o qan qırmızı şərabdan bir "qruşka" (bizdə belə deyərdilər) götürüb hortladardımı?

Bir dəfə kəndimizə rus qonaqlar gəlmişdilər, şərab zavodumuzu görüb dedilər ki, kefdəsiniz, il uzunu əlinizin altında ucuz (əslində müftə) və keyfiyyətli şərabınız var. Bizim alkoqolizmə meylli kəndçilərimiz də onlara belə cavab verdilər ki, əsl kişi 40 dərəcəlsik arağı qoyub çaxır içməz. Gerçəkdən, bizim kənddə çaxır içənə pis baxırdılar. Ruslara da bizimkilərə başıxarab kimi baxıb getmişdilər.

Amma görünür, moldovanlar bizim kimi düşünmürlər, deyirlər, hamı yerli mal içsin, pulu büdcəyə keçsin.

Bəs Litva və Latviya o qədər ucuz və ya müftə içkini haradan alırlar ki, cədvəldə 2-ci, 3-cü yerləri tuturlar? Mat qalmalı işdir.

Rusiya 4-cüdür. Amma adı dünya birincisi kimi çıxıb. Bu günə bu gün dünya üzərində "Alkaş millət hansıdır" sorğusu keçirsələr, 200 dövlətin 150-si 12 balı ruslara verər. Ancaq heç demə, ruslar o qədər də "vuran" deyilmiş. Belaruslar və estonlar onlardan geri qalmır, ukraynalılar isə 2-3 pillə geridən gəlir.

Ərazisinə görə dünyanın 9-cu böyük dövləti olan Qazaxıstan, əhalisinin spirtli içki içməsinə görə də 9-cu yerdədir. Elə olar. Oralara gedib-gəlmişliyim var, qazaxlar çox içirlər. İntəhası, dillərinə dəyəndə tormoz şlanqları partlayır, masanın altına girənə qədər sümürürlər. Özləri bir az qürur duyaraq, bir az da xəcalət çəkərək deyirlər ki, ruslar bizə araq içməyi öyrətdi, amma nə qədər içməyi öyrətmədi.

Gürcü qonşularımız haqlı olaraq 7-ci yerdə olsalar da, bütün regiona tut arağı çəkməyi öyrətmiş ermənilər 5,5 litrlə 11-ci yerdədirlər. Güman ki, yaramazlar çəkdikləri o qədər tut arağının bir litrini belə statistik göstəricilərə daxil etmirlər.

Bu baxımdan güman var ki, bizimkilərin içdikləri araq, çaxır, pivə, likör, viski, tekila, rom, rakı, konyak, brendi, sampan və s. kimi içkilərin çoxu aksiz markası olmayan mayelər qrupuna daxildir. Yəni biz vətənin ad-sanı, iqtisadiyyatının çiçəklənməsi üçün bu qədər içirik, amma bu hesabatlara daxil olmur, ona görə də həm adımız bu cür reytinq cədvəllərində sonuncu olur, həm də dövlət büdcəsinə para girmir.

Yoxsa mənim bir xeyli "vuran" dostum var, təkcə onların səyi ilə ölkəmizin adını autsayder qrupundan çıxarmaq olar.

Səy demişkən, onların içində eləsi var ki, çox vətənpərvərdirlər, əla "Yerevan" konyakı ver, dillərinə vurmazlar, yerli zoğal arağını üstün tutarlar. Bizimkilərin də özünəməxsus şüarları var: "Qoy hamı içsin başı xamırrı, özlərini aparsınlar abırrı".

Ona görə də heç kəs "bu siyahıda da sonuncuyuq" deyə məyusluğa qapılmasın, bəfgüman olmasın. Bu, dürüst siyahı deyil, bunu erməni dəyirmanında tutovka içənlər tərtib edib. Biz bu xüsusda heç kəsdən geri qalmırıq, sadəcə, biz təvazökarıq, içdiklərimizi qeydə aldırmırıq, gözə soxmuruq, oturub bala-bala vururuq.

Adi bir misal. Bizim spirtli içkinin təsiri ilə serrozdan ölənlərimizin sayına baxaq. O biri qardaş ölkələrdə ölənlərin sayından çoxdur ki, az deyil. Əsas da budur. Məşhur müğənni elə belə durumlar üçün oxuyur: "Yaaalan, dünyada ölümdən başqası yalan".

# "Gömrük Komitəsinin ən böyük islahatı məhz mediaya açıq olmaq siyasətidir"

## Dövlət Gömrük Komitəsi Şahdağda jurnalistlər üçün "Gömrük İslahatları və Modernləşdirmə"mövzusunda təlim təşkil edib

**Dövlət Gömrük Komitəsi Şahdağda jurnalistlər üçün "Gömrük İslahatları və Modernləşdirmə"mövzusunda təlim təşkil edib.**









25-29 sentyabr tarixlərində keçiriləcək təlimdə jurnalistlərə gömrük sahəsinə aid bir sıra məlumatlar veriləcək. Eyni zamanda jurnalistlər təlim günlərində əraziyə yaxın gömrük postlarına da aparılacaq, oradakı vəziyyət barəsində media nümayəndələrinə məlumat veriləcək.

Musavat.com xəbər verir ki, təlimin açılış mərasimində Dövlət Gömrük Komitəsinin sədr müavini İqbal Babayev, Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, media kapitanları, gömrük orqanlarının əməkdaşları və jurnalistlər iştirak ediblər.

**İqbal Babayev** təlimin məqsədi, medianın gömrük işindəki rolu və mediaya verilən önəm barəsində danışıb. O bildirib ki, gömrük sistemində geniş islahatlar aparılıb. Komitə əməkdaşlarının maaşları qaldırılıb. Kəmiyyət dəyişiklikləri aparılıb. Lakin keyfiyyət dəyişikliyinin aparılması üçün ictimaiyyətin dəstəyi lazımdır.

Sədr müavini bildirib ki, Dövlət Gömrük Komitəsi 3 istiqamətdə islahatlar aparır. Komitə tərəfindən aparılan 3 istiqamətdə islahatlara "Gömrük-Biznes", "Gömrük-Hökumət", "Gömrük-Gömrük" daxildir. Sədr müavini gömrüyün fəaliyyətində dördüncü bir istiqamətin isə "Gömrük-Media" olmasını istədiyini qeyd edib. İ. Babayev vurğulayıb ki, bəzən gömrük xidmətindən yazan jurnalistlər gömrük yığımları ilə rüsumların fərqini bilmirlər: "Məqsədimiz bu təlimlər vasitəsilə sizlərə bu anlayışları və bu fərqləri izah etməkdir".

**Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli bildirib ki, Gömrük Komitəsinin rəhbərliyi dəyişəndən sonra komitədə geniş islahatlar başlayıb:** "Hesab edirəm ki, gömrükdə aparılan islahatlar nəticəsində bütün problemlər aradan qaldırılacaq. İndi məsələ qoyulub ki, bütün gömrük işçiləri düz işləməlidir. Əlbəttə, hər hansı bir sahədə iş görülürsə və onun təbliğatı yoxdursa, ictimaiyyətə çatdırılmırsa, o işdən kimsə xəbər tutmur. Bundan öncə biz çalışmışıq ki, gömrüklə mətbuatın əlaqələrini quraq, jurnalistlərlə onları görüşdürək. Ancaq mümkün olmurdu. Səfər müəllim gələndən sonra isə bu istiqamətdə də xeyli işlər görülür. Bugünkü təlimlər onu göstərir ki, jurnalistlərə gömrük işləri barəsində geniş məlumat verilir. Bu işlərin gələcəkdə həm jurnalistlərə, həm də bizə böyük köməyi olacaq".

**Çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib ki, təlimlər əsnasında jurnalistlər sahə üzrə geniş bilgilər əldə edəcəklər və islahatlarla bağlı dolğun məlumat hazırlayacaqlar.** "Gömrük hüququnu bilmədən jurnalistlər nə gömrük haqqında tənqid yaza bilər, nə də tərif. Jurnalistikanın bir funksiyası həm də ictimai nəzarətdir. Gömrük haqqında geniş məlumatı olmayan jurnalist, təbii ki, ictimai nəzarəti də həyata keçirə bilməz" deyə, o bildirib.

**"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirdi ki, bu təlimin çox böyük əhəmiyyəti olacaq:** "İndiyə qədər Gömrük Komitəsi çox qapalı olub. İctimaiyyətə açıq olmaq çox vacib məsələdir. Ona görə də bu görüşü önəmli addım hesab edirəm".

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev də çıxış edərək, tədbirin əhəmiyyəti, keçirilən işlərin vacibliyi barəsində danışıb:** "Bu gün görürəm ki, komitənin əməkdaşları ilə jurnalistlər arasında yeni bağ yaranır. Əlbəttə ki, bu, jurnalistlərin fəaliyyəti üçün bir gün ərzində bəzən 4-5 xəbər istehsal edir. Bəzən bu xəbərləri çatdırıb sona qədər verə bilməyəndə, hətta bizə mesaj yazırlar ki, bəzi xəbərlərimiz getnöv yeni informasiya sahələrinin açılması deməkdir. Eyni zamanda bu, komitənin özü üçün də əhəmiyyətlidir. Çünki islahatlar başlayıbsa, bunları ictimaiyyətə təqdim etməkdə jurnalistlərin böyük rolu olacaq".

**Daha sonra çıxış edən "Yeni Müsavat" media qrupunun rəhbəri Rauf Arifoğlu söyləyib ki, burada səslənən fikirlərin böyük əksəriyyəti ilə razıdır:** "Fəaliyyətdə olan qəzetin və saytların baş redaktoru kimi Gömrük Komitəsinin media açılımının nə demək olduğunu çox yaxşı bilirəm. Vaxtilə Gömrük Komitəsi ilə bizim məhkəmə çəkişməmiz olub. Bu, sadə bir səbəbdən baş vermişdi. Sorğu vermişdik, 1 ay ərzində cavab verilmədi və məhkəməyə müraciət etdik. Biz o məhkəməni indi, üstündən 8 il keçəndən sonra udmuş sayılırıq. DGK-nın ən böyük və əsas islahatı məhz mediaya açıq olmaq, şəffaflıq siyasəti yürütməkdir. Bu səbəbdən hesab edirəm ki, mediaya açığıq, ancaq bunu işlə də göstərmək lazımdır. Bu gün Gömrük Komitəsi və onun fəaliyyəti haqqında məlumatlar, ən asan əldə olunan informasiyalardır. Gömrük Komitəsinin mətbuat xidməti məyib. Bu, çox ürəkaçan haldır. Media ilə birbaşa və vasitəçisiz işləmək. Gömrük Komitəsi Azərbaycan üçün strateji əhəmiyyətli qurumdur. Ölkəyə daxil olan hər kəs gömrük xidməti ilə təmas qurur və onun Azərbaycan haqda ilkin təəssüratı məhz bu zaman formalaşır. Hazırda sizin xidmətdən şikayətlər xeyli azalıb. Çünki DGK sahəsində sadələşdirmə, asanlaşma olub. Azərbaycan dövlətinin rəhbərliyi "Asan" fəlsəfəsini və mədəniyyətini ölkəmizə gətirməklə, bir müqayisə predmeti yaradıb. "ASAN Xidmət" fəlsəfəsi tədricən digər sahələrə də keçməkdədir. Bu onu göstərir ki, Azərbaycan xalqı rüşvət vermədən də yaşaya, həyatını sürdürə bilər. Bu xalqın o potensialı da var ki, əlini cibinə salıb şirinlik vermədən də həyatına davam etsin... Biz də media quruluşu olaraq, gördüyünüz bu işlərdə sizə hər cür dəstəyi verməyə hazırıq".

**Sonra "Bizim yol" qəzetinin baş redaktoru Bahəddin Həziyev, "Trend" İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyev də çıxış edərək, fikirlərini bildiriblər.**

❑ **Əli RAİS,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

# Deputatdan prezident yanında ictimai şura yaratmaq təklifi

## Zahid Oruc: "İctimai şura informasiya məkanında təhlükəsizliyi təmin edəcək fəaliyyətin proqramlarını hazırlamalıdır"

**Dünyada ədəbiyyatların, tarix kitablarının, filmlərin, eləcə də hüquqi araşdırmaların, məhkəmə aktlarının daha çox kütləviləşdiyi dövr birinci və ikinci dünya müharibələri zamanı olub. İndi siz təsəvvür edin ki, bu illərdə hazırkı müasir kommunikasiya vasitələri olaydı. Dövrün mənzərəsi bütövlükdə dəyişə bilərdi, hadisələrin ictimai, siyasi yönü ayrı istiqamətə gedərdi, idarəetmənin özünün prinsipləri dəyişərdi.**

**Deputat Zahid Oruc** mühacir adı ilə Avropaya gedib müasir kommunikasiya sistemlərinin verdiyi imkanlardan istifadə edib oradan Azərbaycana, hakimiyyətə qarşı hər gün ittihamlar yağdıranların informasiya müharibəsini neytrallaşdırmağın yolu kimi yeni təklif irəli sürüb. "Yeni Müsavat"a açıqlamasında Zahid Oruc bildirdi ki, bu gün kommunikasiya inqilabı idarəetmə sisteminə yeni yanaşmaları tələb edir. Belə olan təqdirdə biz düşünməliyik ki, klassik yanaşmalar işləmir. Hər gün dünyada informasiya məkanında baş verən bu sürətli yeniliklərə rəğmən yeni sistemdə çevik metodları tətbiq eləmək lazımdır: "Baxın, ABŞ-da hər gün Donald Trampın çevrəsində olan qüvvələrin məhkəmə çəkişmələrinə məruz qaldığını görməkdəyik, orada 20-30 il əvvəlki dövrə görə adamları çarmıxa çəkirlər və bu yolla Trampı öz çevrəsindən məhrum edirlər, komandasını sarsıdırlar, komandanın vahid bir güc halına gəlməsinə imkan vermirlər. Belə olan təqdirdə biz başa düşməliyik bu fenomen dünya üzərindədir. Hər bir dövlət özü kənar məkanlara, elə keçirmək istədiyi ölkələrə bu qeyd etdiyim reseptlərdən nə qədər istifadə edərək yararlanırsa, eləcə də ölkə daxilində özü həmin problemlərin qarşısındadır. Bugünkü fenomen sosial şəbəkələr və YouTube kanalıdır. Biz başa düşməliyik ki, bunun, sadəcə, seyrçisi olarsansa, oradan aldığın zərbələr öz-özlüyündə sənin ictimai dayaqlarına təsir eləmiş olur. Mən bunu hər bir orqana aid edirəm. Biz görməkdəyik ki, xaricə mühacir adı ilə gedən bir sıra şəxslər getdikləri ölkələrdə ələ alınıblar. Xaricdən ölkəmizə qarşı cəbhə açanların başlıca niyyəti ölkə içərisində hakimiyyətin dayaqlarını müəyyən mənada zərbə altına almaqla vətəndaş toqquşmaları doğurmaq, xaos yaratmaq, ölkənin iqtisadi sərvətlərini hansısa dövlətlər üçün açmaq və sairdir. Məsələn, Qurban Məmmədov Londona gedib və oradan hər gün məhz bu niyyətə xidmət edən fikirləri yağdırır. Qurban Məmmədov əgər Londonda bunun əvəzinə bir Qarabağ kanalı yaratsaydı, Azərbaycanın maraqları üçün çalışmalar etsəydi, bunları həyata keçirə bilərdimi? Xeyr. Ona bunun üçün xaricdə kimsə maddi yardım etməyəcəkdi. Amma Azərbaycana qarşı hərəkətlərə çox asanlıqla yardım əldə edə bilirlər. Onun hər gün ölkə rəhbərliyinə qarşı həyata keçirdiyi informasiya təxribatına meydanı var. Onlar gündəlik tezislər alırlar, konkret mərkəzlərdən idarə olunurlar. Onların hərəkətlərinin arxasında dayanan maliyyə resursları var. Ona görə də bu investisiyanı onlara yatıranların mübarizəsini əngəlləmək üçün ölkə başçısı yanında xüsusi bir ictimai şura yaradılmalıdır".



**Deputat hesab edir ki, həmin ictimai şurada hər bir qurumdan təmsilçilər yer almalıdırlar. İctimai şura informasiya məkanında təhlükəsizliyi təmin edəcək fəaliyyətin proqramlarını hazırlamalıdır:** "Biz bilməliyik informasiya müharibəsinin qarşısına çox ciddi sistemli iş mexanizmi ilə çıxmalıyıq. YouTube-da Azərbaycanın maraqlarını müdafiə edən bir neçə kanal yaranmalıdır. Bu fəaliyyəti biz oraya keçirməliyik, o resursda yerləşməliyik. O cümlədən sosial şəbəkələrdə. Sadəcə, arada bir-iki məmurun, bir neçə deputatın hücumlara cavabı ilə biz bu hücumların təsirini tam heçə endirə bilməyəcəyik. Yuxarıda irəli sürdüyüm təkliflərin reallaşması, məncə, kontrmüqavimətin qurulmasına gətirib çıxaracaq və ciddi effekt görünəcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Milli Şura Qarabağ mitinqinə "siyasi rəng" qatmaq istəyir

## Akif Nağı: "İstəməzdim Ədalət bəylə bağlı bu sözləri deyim"

**İctimai və siyasi qurumların təmsilçilərindən ibarət Qarabağ Komitəsinin sentyabrın 29-na "Qarabağa azadlıq!" şüarı ilə təyin etdiyi mitinqə sayılı günlər qaldı. Aksiya ilə bağlı komitənin Bakı Şəhər İcra Hakimiyyətinə etdiyi müraciətə rəsmi qurum hələ reaksiya verməyib.**

Bununla belə, mitinq ətrafında hər keçən gün müzakirələr qızışır. Aksiya təşkilatçıları bir-birinin ardınca bu mitinqdə siyasi şüarların olmayacağını bəyan edirlər, eyni zamanda iqtidarlı, müxalifətli hər kəsi bir olmağa çağırırlar.

Qarabağ Komitəsi üzvlərinin bu səylərinə baxmayaraq, mitinqə tərəfdar olan bəzi şəxslərin sosial şəbəkələrdə mitinq ətrafında gedən müzakirələrdə siyasi şüarlar səsləndirdiklərinin şahidi oluruq. Aksiyada bu tipli şüarlara yer veriləcəyi barədə də statuslar paylaşılır.

Bu tipli statuslardan biri Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Ədalət Yusibova məxsusdur. O, paylaşdığı son statuslarının birində hər kəsi Qarabağ mitinqində fəal iştirak etməyə çağırıb, eyni zamanda həmin mitinqdə hakimiyyətin ünvanına istefa və digər siyasi şüarların səsləndirilməsini dilə gətirib.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Yeni Müsavat"a açıqlamasında Ə.Yusibovun Qarabağ Komitəsinin üzvü olmadığını bildirdi:** "Ədalət bəylə bağlı ayrıca bir söhbət olub ki, o, Salyanda daha geniş işlər görə bilər. Çünki o zonanın nüfuzlu şəxslərindən biridir. Onunla bağlı şəxsinə müəyyən mesajlar da göndərmişik. Təmsilçisi olduğu KXCP tərəfindən ona məlumat verilib-verilmədiyi barədə nəsə deyə bilmərəm. Hər kəs mitinqlə bağlı müxtəlif təbliğat formaları seçə bilər. Təkcə Ədalət bəy deyil, başqa şəxslər də bu yöndə müəyyən çağırışlar edirlər. Mitinq Komitəsinin 30-a yaxın üzvü var. Ümumi bir razılıq əldə olunub ki, bu mitinqdə siyasi tələblər olmayacaq. Canlı yayımlarda, sosial şəbəkələrdə və digər kütləvi informasiya vasitələrində bu mövzuda Pənah Hüseyn, Tural Abbaslı, Əvəz Zeynallı və digərləri öz mövqelərini dəfələrlə bildiriblər. Mən də dəfələrlə demişəm ki, bu mitinq siyasi mitinq deyil, hakimiyyətin istefası tələbi bu mitinqdə qoyulmur. Bizim üçün vacib olan Qarabağın işğaldan azad olunmasıdır. Torpaqlarımızın da işğaldan azad olunmasının ən vacib şərtlərindən biri ölkədə iqtidar-müxalifət, eləcə də hakimiyyətlə cəmiyyət arasında birliyin əldə olunmasıdır. Biz hesab edirik ki, bu birlik əldə olunarsa, Qarabağın işğaldan azad olunması çox asan bir prosesə çevriləcək. Məqsədimiz də ona doğrudur. Bu məqsədlə yolumuza davam edirik. Fərqli şüar səsləndirənlər bizim əsas xəttimizi bilmirlər, yaxud bilərəkdən bu xətti pozmağa çalışırlar. İstəməzdim Ədalət bəylə bağlı bu sözləri deyim. Sizin qəzetiniz vasitəsilə hər kəsə çatdırıram ki, mitinqin siyasi xəttini, tələbini mütləq bilmək lazımdır. Kim mitinqə çağırışlar edirsə, bu xəttə uyğun şüarlar səsləndirsin, mövqe bildirsin. Bundan kənar mövqe bildirmək olmaz".




**A.Nağı bu cür çağırışların mitinqə maneçilik yaratmayacağını düşünür:** "Bu cür hallar mitinqimizə ciddi zərbə ola bilməz. Çünki ictimaiyyətin böyük kəsimi tərəfindən bizim şüarlarımız, tələblərimiz dəstəklənir. Amma deyə bilmərik ki, mitinq hər kəs tərəfindən dəstəklənir. Müxtəlif siyasi bloklar, istiqamətlər var, onlar bu mitinqin keçirilməsində maraqlı ola bilərlər. Belə şüarlar səsləndirməklə öz siyasi qurumlarının maraqlarına uyğun da hərəkət edə, yaxud belə fikirlər ortaya atmaqla əsas hədəfdən yayındırma cəhdləri edə bilərlər. Yenə də deyirəm ki, bunları Ədalət bəyə ittiham kimi səsləndirmək istəmirəm, başqaları barədə də bunları demirəm. Göyçaydan tanımadığımız bir şəxs sosial şəbəkələrdə çağırış yayaraq, bütün siyasi partiyalara müraciət edib. Mən də o statusu öz profilimdə paylaşmışdım. Bəzi məqamlara statusda fikir verməmişdim. Çağırışın içərisində Müsavat, AXCP, REAL kimi müxalif qurumlar xoşagəlməyən tərzdə ittiham olunurdu. Bu partiyaların mitinqdə iştirak etməmələri tənqid edilirdi. Müsavatçı dostlarımızdan biri status yazaraq, mənim belə bir status paylaşdığımı bildirdi. Sonradan həmin statusu öz profilimdən sildim. Çünki bu partiyalar sərt formada ittiham olunurdu. "Uman yerdən küsərlər" deyiblər. Yəni hər kəs Müsavat, AXCP və REAL-ın bu mitinqdə fəal iştirak etməsini istəyir. Bunun üçün də belə çağırışlar ortaya çıxır. Amma istənilən halda hər şey müəyyən çərçivədə olmalıdır. Tanımadığımız adamların belə mitinqə çağırışlar etdiyinin şahidi oluruq. Ədalət bəy də hesab edirəm ki, bunu bilməyərəkdən edib. Bu mitinq kifayət qədər rezonans doğurub. Türkiyə və digər yerlərdən müraciətlər olur ki, bizim mitinqdən bir neçə gün sonra onlar da olduqları ölkələrdə "Qarabağa azadlıq!" tələbi ilə aksiyalar keçirmək istəyirlər. Məhz bu səbəbdən inanmıram ki, bu cür çağırışlar mitinqimizə ciddi şəkildə xələl gətirsin. Hakimiyyətin ola bilsin mövqeyinə təsir etsin, onlar mitinqə icazə verməmək üçün bu cür çağırışları əsas götürsünlər, bir növ bəhanə etsinlər. Amma inanmıram ki, onlar da bunu əsas götürsünlər, ən azından buna inanmaq istəmirəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Narxozun valyutası

Zamin HACI
zaminhaci@gmail.com

*"Ay ağalar, gəlin sizə söyləyim,*
*Yəqin bu dünyanı pul dolandırır.*
*Kəsilib məhəbbət, qalmayıb hörmət,*
*Dövlətli dalınca mal dolandırır"*

**(Aşıq Alı)**

**Sovet vaxtı bizim indiki Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) qəribə ayamaları vardı. Bu, ilk növbədə orada yaradılan bazarın, rüşvətxorluğun təsiri ilə idi. O vaxt bu məktəb Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutu adlanırdı, bunun ruscasından qısaltma olaraq "Narxoz" deyilirdi ("narodnoye xozyaystvo"). Ancaq təbii ki, bu addan danışmıram, başqa ayamadan söhbət gedir və yeri gəlmişkən, mənim Narxozda ilk "imtahanlarımdan" biri elə məktəbin adıyla bağlı olub. Yanılmıramsa, ali riyaziyyat kafedrasının müəllimi imtahanda sual vermişdi ki, əgər məktəbimizin adını düzgün desən sənə qiymət yazacağam. Mən də dedim: "Pulxoz". Dedi o biri adını da de. Dedim: "Kolxoz". Çətin günlər idi, AXC-Müsavat cütlüyü hakimiyyətə gəlməyə hazırlaşırdı.**

İndi bunu niyə yazıram? Dünən xəbər oxudum: ADİU öz kriptovalyutasını qayırıbdır. Bu haqda universitetin rektoru Ədalət müəllim uca millətimizə informasiya vermişdir. Gözəl xəbərdir. İndiki dünya bitkoin-mitkoin dünyasıdır. Hərə bir elektron valyuta qayırıb mayninq eləyir, internetdən pulu süpürgə ilə yığırlar. Ümid edək Narxozun "bitkoin"i də uğurla bu bazarda öz yerini tapsın, respublikamızın qeyri-neft sektoru inkişaf eləsin, biz də gedək Sabirin heykəli ilə üzbəüzdəki kafedə təzədən kakao ilə sosiska sifariş verib gəncliyimizi xatırlayaq, xoşhal olaq, ilahi, amin!

Bayaq Narxozun kriptovalyutasını niyə dırnaq arasında "bitkoin" yazdım? Çünki hörmətli Ədalət müəllim Narxozun bu möhtəşəm hərəkətini bizə çatdırsa da valyutanın ismi-şərifini sekretdə saxlamışdır. Yəqin belə lazımdır - ermənilər oğurlayar. O qədər belənçik sərvətlərimizi vaxtında çırpışdırıb öz adlarına çıxıblar ki. Bunlardan xüsusi qeyd edə bilərik Sarı gəlini, dolmanı, xarı-bülbülü, lavaşı, Topxana meşəsindəki armud ağacını. Lakin əlbəttə, bir gün Narxozun kriptovalyutası öz adıyla dünya bazarına çıxacaqdır. Mən təklif edirəm, elə bunu "Pulxoz" valyutası adlandıraq, tariximizə hörmət olsun. İndi söz əlaqədar təşkilatlarındır - bəzən sizə yazının ortasında ehtiyac olur, ancaq buna görə özünüzü çox dartmayın.

Yeri gəlmişkən, Ədalət müəllim bu şad xəbəri millətimizə Bakıda keçirilən Elektron Ticarət Forumu tədbirində çatdırıbdır. Bu forum özü də ölkəmizin nə cür inkişaf elədiyini göstərir - heç AXC-Müsavat hakimiyyəti dövründə bizdə internet yox idi. İndi, maşallah, hamının cibində "şatşap" var. Bəzi adamlar hətta "nazik internet" alıblar (bunu da noutbuka deyirlər). Doğrudan da bizdə elektronika, ticarət, forumlar çox yuxarı səviyyədədir. Kosmosda bu işlər üçün peykimiz uçur, sən nə danışırsan?! Düzdür, forumun iş günü nəsə oldu, rəsmi orqanların saytları bir müddətə əldən getdi, ancaq qəm eləməyə dəyməz, kişinin başına iş gələr. Elnən gedən elektron toy-bayramdır. Saytının domenini göstər, deyim kimsən. Örtülü virus parolu pozar.

Ta söhbət elektronikadan düşüb, bir Narxoz xatirəsi də yazım. O vaxt bizim bir EHM (elektron hesablama maşınları) müəllimi vardı, qubalı Saməddin müəllim. Bir gün bu məndən imtahan götürür, pul-zad verməmişəm, tapşırıq-dayday-zad da təbii ki, yoxdur. Nəsə, rəhmətlik (sağdırsa, üzr istəyirəm) açdı "virtual", gizli siyahısını, gördü burada mənim adım yoxdur, başladı ilişdirməyə. Sual sual dalıyca. Mən də, yalan olmasın, tapança kimi cavab verirəm. Axır sualı belə oldu ki, informasiya harada saxlanılır. Dedim, kompüterin yaddaş qurğusunda, prosessorda. Dedi, başqa harada. Başladım saymağa: disketdə, informasiya kitabxanalarında, nə bilim, daha hansı cəhənnəmin dibində. Qısası, mən saydıqca, adam "başqa harada" deyə soruşur, məqsəd aydındır ki, qiymət almamalıyam. Gördüm bu iş çox uzanır, növbəti dəfə informasiya harada saxlanır soruşanda dedim: "Çəlləkdə". Rəhmətlik də arif və hazırcavab adam idi, dedi: "Gəl onda sənə bir duza qoyulmuş "3" yazım, çıx get". Beləcə, imtahanı verdik.

Yaman vaxtlar idi. Sizə o günlərdən dəm vururam ki, Nemət indi Formula yarışı olan meydanda milləti qaldırıb otuzdururdu. Ax-vax...

# Birinci vitse-prezident İtaliyada rəsmi səfərdədir

## Mehriban Əliyeva İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati ilə görüşüb

**İtaliyada rəsmi səfərdə olan Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 25-də İtaliya Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.**

"Report" xəbər verir ki, Senatın sədri Maria Elisabetta Alberti Kasellati Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanı səmimiyyətlə salamlayıb, Azərbaycan-İtaliya münasibətlərini, o cümlədən parlamentlərarası əlaqələri yüksək qiymətləndirib. Senatın sədri son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində çox böyük nailiyyətlərin əldə olunduğunu vurğulayıb.

Maria Elisabetta Alberti Kasellati Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı İtaliya Senatında keçirilən konfransın əhəmiyyətinə toxunaraq qeyd edib ki, Azərbaycan ötən əsrin əvvəllərində demokratiya, mütərəqqi ideyaların daşıyıcısı kimi mühüm addımlar atıb.



Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirən Maria Elisabetta Alberti Kasellati deyib ki, Heydər Əliyev Fondu İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələr həyata keçirir. Bütün bu işlərə görə Mehriban Əliyevaya minnətdarlığını bildirən Senatın sədri bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib.

Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva səmimi görüşə görə təşəkkürünü bildirib, Maria Elisabetta Alberti Kasellatini bu yaxınlarda Senatın sədri kimi fəaliyyətə başlaması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Mehriban Əliyeva Azərbaycan-İtaliya əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib. Azərbaycanın birinci vitse-prezidenti Heydər Əliyev Fondunun fəaliyyətinə verdiyi yüksək qiymətə görə İtaliya Senatının sədrinə minnətdarlığını ifadə edib.

Görüşdə vurğulanıb ki, İtaliya prezidentinin bu ilin iyulunda Azərbaycana səfəri əlaqələrimizin səviyyəsinin göstəricisidir. Bu səfər çərçivəsində aparılan səmərəli danışıqlar əlaqələrimizin inkişafına mühüm töhfə verəcək.

Söhbət zamanı İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyi bildirilib. Qeyd edilib ki, rəsmi Roma Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyində ki rolunu yüksək dəyərləndirir. Vurğulanıb ki, xalqlarımız arasındakı münasibətlərin yaxınlaşmasına töhfə verən İtaliya ilə Azərbaycan arasındakı mədəni əlaqələr də inkişaf edir.

# İdlibdən sonra Ərdoğanla Putinin Qarabağ razılaşması mümkünmü?

## Arzuxan Əlizadə: "Rusiya-Türkiyə-İran formatı gələcəkdə Dağlıq Qarabağ probleminin həllində əhəmiyyətli rol oynaya bilər"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında İdlib məsələsi ilə bağlı razılaşmanın əldə edilməsindən sonra Dağlıq Qarabağ məsələsində də günün birində belə bir razılaşmanın mümkün olub-olmadığı müzakirə edilir.**



**AMİP-in sədr əvəzi Arzuxan** Əlizadə bu barədə "Yeni Müsavat"a şərhində bildirdi ki, Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin arasında belə bir razılaşmanın Dağlıq Qarabağla da əlaqədar ola biləcəyi barədə birmənalı proqnoz vermək mümkün deyil. Bu məsələdə bir sıra amillər nəzərdən keçirilməlidir. Yalnız bir məsələni əminliklə demək olar ki, Türkiyə və Rusiyanın son zamanlar müşahidə olunan yaxınlaşması regiondakı münaqişələrin alovlanma risklərini tam aradan qaldırmasa da, ən azından azaldır: "Görünən odur ki, son dövrlərdə hər iki dövlət arasındakı münasibətlər artan xətt üzrə inkişaf edir. Məsələn, Putin 18 mart prezident seçkilərindən sonra ilk xarici səfərini Türkiyəyə reallaşdırdı. Digər tərəfdən Qərbin sərt sanksiyaları Putinə Qərb ölkələrinə səfər etmək məhdudiyyəti yaradıb. Bu gün Moskva və Ankara hökumətləri enerji sektorunda bir-biri ilə sıx əməkdaşlıq edir. Türkiyə Rusiyadan neft və qaz idxal edir. Rusiya həmçinin Türkiyəyə Akkuyu Atom Elektrik Stansiyasının tikintisində kömək edir. Akkuyuda atom elektrik stansiyasının ilk reaktorunun 2023-cü ildə işə düşəcəyini nəzərə alsaq, bu o deməkdir ki, ən azı 2023-cü ilə qədər Rusiya-Türkiyə münasibətlərində problem olmamalıdır. Hər il Türkiyəyə təxminən 4 milyon civarında rus turist gəlir və s. Şübhəsiz ki, belə geniş iqtisadi münasibətlər istər-istəməz siyasi riskləri də azaldır.

Lakin Rusiya və Türkiyənin maraqları Cənubi Qafqazda əhəmiyyətli dərəcədə toqquşur. Belə ki, Rusiya və Türkiyə Ermənistanla Azərbaycan arasında mövcud olan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə bir-birinə əks mövqelərdədirlər. Rusiya Ermənistanın strateji tərəfdaşı olaraq üzərində Ermənistanı qorumaqla bağlı öhdəlikləri vardır. Həmçinin Moskvanın İrəvanla hərbi müqaviləsi də mövcuddur, eyni zamanda Ermənistan Rusiyanın projesi olan KTMT-nin üzvüdür. Ankara isə Bakı ilə strateji tərəfdaşlıq və qarşılıqlı dəstək müqaviləsinə malikdir. Türkiyə Azərbaycanın strateji tərəfdaşı və qardaş dövlət olmaqla onsuz da 20 ildən artıqdır ki, bu münaqişənin müəyyən mənada içindədir və Türkiyə məhz Qarabağa görə Ermənistanla bütün diplomatik əlaqələri kəsib, sərhədləri bağlayıb".

**A.Əlizadə qeyd etdi ki, eyni zamanda bütün bu deyilənlərin fonunda hazırda Türkiyə və Rusiya arasındakı iqtisadi əlaqələrin inkişafı bölgədəki sülh və sabitliyə təsir edən əsas amillərdən birinə çevrilməkdədir. Şübhəsiz ki, bu əlaqələrin möhkəmlənməsi və inkişafı Dağlıq Qarabağ məsələsinin ədalətli həllinə də təkan verə bilər:** "Rəcəb Tayyib Ərdoğan Vladimir Putinlə İdliblə bağlı Soçi görüşündə belə bir fikir işlədib ki, Rusiya və Türkiyə bölgədə sülhün və stabilliyin bərqərar olması istiqamətində birgə intensiv işi davam etdirəcəklər. Yeni Ərdoğan istəyir ki, Türkiyə-Rusiya siyasi əməkdaşlığı yalnız Suriya ilə kifayətlənməsin, gələcəkdə başqa regional mövzular ətrafında da fikir mübadiləsi aparılsın.

Bu gün onu da nəzərə almaq lazımdır ki, Türkiyə-Rusiya-İran formatı bölgədə real gücə çevrilməkdədir. Azərbaycanın bu 3 ölkənin hər biri ilə quru sərhədləri vardır. Bu baxımdan Azərbaycan mövcud üçlü formatın gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin həllində də pozitiv rol oynamasında maraqlıdır. Onsuz da ATƏT-in Minsk Qrupu münaqişəni həll etmək istəmir. Digər tərəfdən, Türkiyə və İran danışıqlar prosesində kənarda qalmalarından narazıdırlar. Ona görə də hesab edirəm ki, Rusiya-Türkiyə-İran formatı gələcəkdə Dağlıq Qarabağ probleminin həllində əhəmiyyətli rol oynaya bilər. Azərbaycan diplomatiyası bu reallığı nəzərə almalı, Azərbaycan dövləti siyasi iradəsini, iqtisadi və hərbi gücünü ortaya qoymaqla sübut etməlidir ki, işğal altında olan Azərbaycan torpaqlarının işğaldan azad olunması və Dağlıq Qarabağ problemini ədalətli həlli regionda sabitliyin və iqtisadi inkişafın qarantıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

**Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ-a işgüzar səfəri başa çatır. Dünən o, BMT Baş Məclisinin növbəti sessiyası çərçivəsində ABŞ-dakı nüfuzlu erməni icması və erməni təşkilatlarının aparıcı şəxsləri ilə görüşüb. “Yeni Müsavat” erməni qaynağına istinadən xəbər verir ki, imkanlı ermənilərin “saqqızını” oğurlamaq üçün Paşinyan növbəti alovlu çıxışına başlar-başlamaz, “Ermənistanda tamamən fərqli ab-havanın və atmosferin hökm sürdüyünü” iddia edib.**




# Paşinyan Amerikadan da əliboş dönür - Bakı şans versə...

## İrəvana mer seçkilərində qələbədən ruhlanan Ermənistanın baş naziri varlı erməni lobbisinə çağırış etdi; diaspora və Qərb isə işğalçı ölkəyə böyük sərmayə qoymağa tələsmir - tək səbəb; **rusiyalı analitik:** “Bakıda da Paşinyanın niyyətini yaxşı başa düşürlər...”

Sentyabrın 23-də İrəvana mer seçkiləri zamanı özünün dəstəklədiyi “Mənim addımım” blokunun 81%-lə qalib gəlməsini xüsusi qeyd edən Paşinyan bunu ölkədə demokratikləşmə yönündə daha bir qələbə kimi gözə soxmağa çalışıb. “Daha Ermənistanda monopoliya və imtiyazlı adamlar yoxdur”, “indi bizim əsas vəzifəmiz ölkəyə investisiya cəlb eləməkdir” deyən erməni baş nazir Amerikanın varlı ermənilərini bu yöndə fəal olmağa çağırıb.

*****

Bununla belə, erməni diasporu hələ ki tələsmir, ciddi tərəddüd içindədir. Əsas səbəb də təbii ki, Rusiya amili ilə bağlıdır. Diasporda haqlı olaraq, hesab edirlər ki, “monopoliyasız”, lakin Moskvanın siyasi-hərbi asılılığında olan vassal Ermənistanda böyük sərmayələr bata da bilər. Yəni biznesə qarantiya məsələsi.

Bu üzdən xaricdəki imkanlı ermənilər, - elə Qərbin maliyyə mərkəzləri də, - öncə inqilabsonrakı İrəvan-Moskva münasibətlərinin konkret hansı məcrada inkişaf tapacağını, Putin-Paşinyan “dostluğu”nun hara kimi sürəcəyinə əyani şəkildə əmin olmaq istəyirlər.

Ayrı sözlə, Paşinyan iqtidarı qarşısında əsas hədəf ölkəyə sərmayə cəlb eləmək yox, Ermənistanın Rusiyadan asılılığını azaltmaqdır. Daha doğrusu, birinci məsələ ikinciyə - geosiyasi seçimə birbaşa bağlıdır. Bu mənada Paşinyanın Amerikadan da əliboş dönəcəyi yəqindir.

Yeri gəlmişkən, ermənipərəst ABŞ konqresmenlərinin və lobbinin cidd-cəhdlərinə rəğmən, N.Paşinyanın prezident Donald Trampla görüşünün baş tutmamasının tək səbəbi budur - Ermənistanın yeni hakimiyyətinin xarici siyasət oriyentasiyasında ciddi dəyişikliyin baş verməməsi, yaxud Paşinyanın qərbyönlü komandasının bunu bacarmaması, Rusiya qarşısında içilən sədaqət andları.

Rusiya arealından uzaqlaşmaq isə olduqca risklidir. Xüsusən də növbədənkənar parlament seçkiləri ərəfəsində bu, oturduğun budağı kəsmək kimi bir şey olardı. Çünki söhbət hər şeydən öncə dəyərlərdən gedir - o dəyərlərdən ki, onları Paşinyandan fərqli olaraq, Putin bölüşmür.

*****

Seçkilərdən söz düşmüşkən, İrəvana mer seçkilərinin nəticəsindən ruhlanan Paşinyan diasporla görüşdə belə bir ifadə də işlədib ki, erkən parlament seçkiləri artıq qaçılmazdır və o, bacardıqca tez keçirilməlidir. Ekspertlər onun tələskənliyini bir sıra amillərlə izah edirlər.

**“Paşinyan Ermənistanda erkən parlament seçkilərinə hazırlaşır, amma onun mövqeyi mayda olduğu qədər güclü deyil”. “Yeni Müsavat” xəbər verir ki, bunu axar.az-a rusiyalı tarixçi-alim və analitik Oleq Kuznetsov deyib.**

“Paşinyan daxili siyasətdə bu ilin yazında xalqına verdiyi vədlərin heç birini yerinə yetirməyib. Əslində iqtidara gəldiyi ilk günlərdən mənə şəxsən məlum idi ki, Paşinyan populist və demaqoqdur, eləcə də dövlət idarəçiliyi və maliyyə siyasəti məsələlərində həvəskardır. O və onun bütün komandası amerikayönümlü qeyri-hökumət təşkilatlarından ortaya çıxan şəxslərdir. Əsas vəzifələri də dövlət quruculuğu deyil, dövləti tənqid etməkdir. Buna görə Ermənistanın mövcud hökuməti tamamilə həvəskar və demaqoqlardan ibarətdir. Bu adamların heç biri ölkədə müsbətə doğru köklü dəyişiklik etmək iqtidarında deyil”, - deyə analitik qeyd edib.

**Politoloqun sözlərinə görə, Paşinyan və onun komandası erməni əhalisi arasında öz inamlarını təmin etmək üçün yeganə üsula malikdir:** “O, seçki ərəfəsində əhalinin diqqətini daxili problemlərlə qatmalıdır. Kollektiv şüursuzluqdan istifadə edərək kütlənin ona olan sədaqətini itirməsinə yol verməmək fikrindədir. Ona görə də bu gün Dağlıq Qarabağ separatçılarının qeyri-qanuni silahlı qruplaşma komandirlərinin siyasi xələfi kimi o, Ermənistan-Azərbaycan münaqişəsini qızışdırmağa məcburdur. Erməni ordusu çarəsizliyi səbəbindən genişmiqyaslı hərbi əməliyyatlara başlaya bilməz, lakin seçki ərəfəsində öz reytinqini yüksəltmək üçün işğal olunmuş torpaqlarda hər hansı hərbi təxribat həyata keçirə bilər - Paşinyan bunu bacarır”.

**Kuznetsov bildirib ki, bu gün Qarabağdakı erməni hərbi qüvvələrinin aktivliyi daxili siyasətə hesablanmış və yaxşı planlaşdırılmış nümayişdən başqa bir şey deyil:** “Bakıda yüksək idarəçilik səviyyəsində Paşinyanın bu niyyətini yaxşı başa düşürlər”. Onun fikrincə, Azərbaycan prezidenti İlham Əliyev Ermənistanla münaqişənin sülh yolu ilə həllinə çalışır: “Həmçinin Ermənistandakı gərgin daxili siyasi vəziyyət bu uzunmüddətli qarşıdurmanın sülh yolu ilə ədalətli həlli üçün şans verir və buna görə də əminəm ki, növbəti yaza qədər heç bir müharibə olmayacaq”.

*****

Bu, rusiyalı tanınmış ekspertin fikridir. İşğalçı tərəfin Bakının daha bir xoşməramlı jestini doğru-düzgün qiymətləndirəcəyini söyləmək isə çətindir. Əksinə, rusiyalı analitikin də vurğuladığı kimi, seçkilər ərəfəsi öz reytinqini artırmaq üçün cəbhədə təxribata belə qol qoya biləcək Paşinyan Bakıdan sərt hərbi cavab ala, 2016-cı ilin “aprel sindromu” həmin cavabın yanında olduqca kiçik görünə bilər...

❑ **Siyasət şöbəsi, “Yeni Müsavat”**

# Azərbaycan müsəlman ölkələrinə çağırış etdi - səbəb

## Elmar Məmmədyarovun İslam Əməkdaşlıq Təşkilatı üzvlərinə müraciətində əsas motiv




**Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) dövlətlərinə Ermənistanı BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) 884 (1993) saylı qətnamələrində, eləcə də İƏT-in Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamə və qərarlarındakı tələblərə əməl etməyə vadar etmək üçün bu ölkə ilə ikitərəfli münasibətlərini aşağı səviyyəyə endirmələrini təklif edib.**

“Report” xəbər verir ki, bunu xarici işlər naziri Elmar Məmmədyarov İƏT-in Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə Əlaqə Qrupunun Nyu-Yorkda keçirilən 3-cü iclasında çıxışı zamanı deyib. Nazir bildirib ki, Ermənistanla Azərbaycan arasında münaqişənin başlamasından əsrin bir rübündən çox vaxt keçib. Lakin buna baxmayaraq, Ermənistan BMT Təhlükəsizlik Şurasının tələbləri və BMT Baş Assambleyanın qətnamələri, İƏT və digər beynəlxalq təşkilatların qərarları və fərdi dövlətlərin mövqelərinə hörmətsizlik edərək və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, Azərbaycan ərazilərinin qanunsuz işğalını davam etdirir.

Qeyd edək ki, İƏT (2011-ci il iyunun 28-dək İslam Konfransı Təşkilatı adlanıb) 1969-cu il sentyabrın 22-dən 25-dək Mərakeşin paytaxtı Rabatda keçirilən müsəlman ölkələri dövlət və hökumət başçılarının konfransında təsis olunub. Təsis konfransında 25 ölkə və Fələstin Azadlıq Təşkilatı (FAT) iştirak edib. Ancaq sonradan qurum genişlənib və hazırda 57 üzv ölkəsi var. BMT-dən sonra ən çox dövlətin birləşdiyi ən böyük təşkilatdır. İslam Konfransı Təşkilatı BMT ilə sıx əməkdaşlıq edir və təşkilat 1975-ci ildə BMT yanında müşahidəçi statusu alıb.

İƏT əsas işçi orqanı olan Baş katiblik 1971-ci ildən fəaliyyət göstərir. İƏT Baş katibliyin iqamətgahı Qüds İsrail işğalından azad edilənədək müvəqqəti olaraq Ciddədə (Səudiyyə Ərəbistanı) yerləşir. İƏT-in (keçmiş İKT) nizamnaməsinə əsasən təşkilatın əsas funksiyaları aşağıdakılardır:

*1) İslam ölkələri arasında birliyin gücləndirilməsi, çoxsaxəli əlaqələrin inkişafı, bütün islam xalqlarının azadlıq və milli hüquqlarının qorunmasını dəstəkləmək;*

*2) İslamda müqəddəs sayılan məkanların qorunmasının, eləcə də Fələstin xalqının öz hüquqları və işğal olunmuş torpaqlarının azad olunması uğrunda apardığı mübarizənin əlaqələndirilməsi;*

*3) müstəmləkəçiliyin bütün növlərinin və milli ayrı-seçkiliyin aradan qaldırılması, İKT üzvləri arasında və digər dövlətlərlə əməkdaşlıq üçün şərait yaradılması, beynəlxalq təhlükəsizliyin və sülhün qorunması istiqamətində iş aparmaq.*

Göründüyü kimi, İƏT-in əsas prinsipləri münaqişələrin ədalətli həlli, həmçinin milli hüquqların qorunması, təhlükəsizlik və sairdir. Bu mənada İƏT-in Qarabağ münaqişəsində Azərbaycana dəstək verməsi təşkilatın yaranma prinsiplərinə daxildir. Yeri gəlmişkən, keçmiş sovet respublikaları içərisində ilk olaraq Azərbaycan 1991-ci ildə İƏT-in üzvü olub. Ötən 27 il ərzində İƏT dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat verib, Ermənistanın təcavüzünü pisləyən qətnamə qəbul edib. Hazırda təşkilat beynəlxalq toplantılarda Azərbaycana böyük dəstək verir. Ancaq təşkilatın qəbul etdiyi qərarların icrasını məcbur etmə imkanı yoxdur. Bu səbəbdən BMT qətnamələri kimi, İƏT sənədlərinin də elə ciddi təsiri yoxdur.

Ancaq məsələ ondadır ki, son illərdə bir sıra müsəlman ölkələri Ermənistanla əlaqələri inkişaf etdirməyə çalışır. Hətta Azərbaycan ərazilərini işğal etdiyi üçün Ermənistanla rəsmi əlaqələri olmayan Səudiyyə Ərəbistanı hakimiyyəti də son dövrlərdə İrəvanla əlaqələri qura biləcəyinə işarə edən mesajlar verir. Bundan başqa, Birləşmiş Ərəb Əmirlikləri son iki ildə İrəvana heyət göndərib, eləcə də keçmiş prezident Sərkisyanı Əbu Dabidə qarşılayıb. Eləcə də Misirin Ermənistanla geniş əlaqələri var.

Qeyd edək ki, İƏT üzvü ölkələrdən Səudiyyə Ərəbistanı və Pakistanın Ermənistanla diplomatik əlaqələri yoxdur. Ancaq son illərdə xüsusən də körfəz ölkələrindən Ermənistana əməkdaşlıq jestlərinin arxasında Türkiyə ilə münasibətlərin pisləşməsi faktoru dayanır. Görünür, Elmar Məmmədyarovun İƏT üzvü ölkələrinə müraciətinin səbəbi məhz Ermənistanla müsəlman ölkələri arasındakı yaxınlaşmadır. Məlumdur ki, region ölkələrindən İranın Ermənistanla sıx əməkdaşlıq əlaqələri mövcuddur. Hətta iki ölkə arasında nəqliyyat və birgə su bəndi kimi layihələri var. Bakını bu amil də narahat edə bilər. Ancaq rəsmi Bakının yalnız İrana deyil, bütövlükdə İƏT ölkələrinə müraciət etməsi narahatlığın sərhədlərinin daha geniş olduğunu göstərir.

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

**Bir neçə gün əvvəl Bakıya yağan yarım saatlıq yağış yenidən paytaxtın bir sıra ərazilərində sellərin, gölməçələrin yaranmasına səbəb oldu. Xüsusilə şəhərin mərkəzi ərazilərində bu halın müşahidə olunması diqqətlərin yenidən paytaxtın yağış sularını ötürmə sisteminə cavabdeh olan quruma - "Azərsu" ASC-yə yönəltdi.**

# Bakının kanalizasiya sistemi yenə "boğuldu" - səbəblər

## "Azərsu" ASC-yə ayrılan 8,6 milyardı "sel apardı"; qurum ona həvalə edilən milyardlarla manatı elə xərcləyib ki, hələ istismar müddəti bitən xətlərin yarısı belə təzələnməyib...



Bakı Şəhər İcra Hakimiyyətinin yaydığı açıqlamadan aydın oldu ki, paytaxtda yağan intensiv yağışlar nəticəsində bir sıra fəsadlar yaranıb, proqnoz və ehtimallardan artıq yağan yağış suları şəhərin bəzi ərazilərini, küçə və prospektləri, bir sıra binaların zirzəmilərində yerləşən obyektləri basıb: "Mərkəzdə yağış sularının fəsadlarının daha çox olmasının təbii səbəblərindən əlavə texniki səbəbi də olub. Belə ki, son dövrlərdə paytaxtın mərkəz ərazilərində tikilən çoxsaylı yeni tikililərin daha da çoxalması, həmçinin müstəqil qurum olan "Azərsu" ASC-nin mövcud kollektorlarının fövqəladə hallarda böyük su kütləsinin axıdılmasının öhdəsindən tam şəkildə gələ bilinməməsi də buna səbəb kimi göstərilə bilər. Həmin gün Neftçilər prospekti boyu uzanan "Sahil" kollektorunda yağış sularının daşınması üçün nəzərdə tutulan təxliyə xətlərinin çox gec açılması da əlavə problem yaratmışdır. Sonradan bu problem aradan qaldırılmış və axıdılan suyun səviyyəsi kəskin azalmışdır. Bununla əlaqədar gələcəkdə belə halların baş verməməsi üçün "Azərsu" ASC tərəfindən kollektorların gücü ilə bağlı yeni hesablamalar aparılmalı və əlavə tədbirlər görülməlidir".

**Bakı şəhər rəhbərliyinin açıqlamasındakı faktın birini - normadan artıq yağıntı düşməsini "Azərsu" mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı da vurğulayır:** "Qısa müddətdə intensiv və leysan xarakterli yağış bəzi yerlərdə fəsadların yaranmasına səbəb oldu. Bəzi ərazilərdə bizim xətlərimizin bu suları daşımağa gücü çatmadı. Ona görə də biz məcburiyyət qarşısında qalıb Bulvar ərazisindən keçən sənaye kollektorunu açmalı olduq. Bu istiqamətdə iki nöqtədə təxliyə xətlərimiz var. O xətlər vasitəsilə suları dənizə buraxdıq ki, bu sistem suları götürə bilsin. Yəni suyun həcminin həddindən artıq çox olması müəyyən ərazilərdə yığılmalara səbəb oldu. Bununla belə, bizim Bakı Su Kanal İdarəsi, rəhbərləri də daxil olmaqla ərazilərə cəlb olundular. Fəsadlı yerlərdə suyun yığılmasının səbəblərini araşdırırlar. Həlli yolları ilə bağlı yəqin ki, təkliflər hazırlayacağıq".

Göründüyü kimi, ASC təmsilçisi faktiki olaraq kollektoru gec açıldığını etiraf edir. Buradan sual yaranır ki, "Azərsu" bəhs olunan kollektoru hansı səbəbdən gec açıb; axı şəhərin mərkəzi küçələrində dağ çaylarına bənzər sellər yarananadək gözləmədən kollektoru açmaq və hadisənin miqyasının böyüməsinə imkan verməmək olardı.

Səbəb çox sadədir: problemin miqyasının böyüməsinə nail olmaq və yağış sularını ötürən sistemin yenidənqurulması üçün dövlətdən əlavə vəsait əldə etmək!

Məsələ burasındadır ki, nə A.Cəbrayıllı, nə də digər "Azərsu" rəsmiləri uzun illərdir haqqında söhbət açılan yağış sularının ötürülməsi sistemindəki çatışmazlıqların nə zaman aradan qaldırılacağını açıqlamır. ASC rəhbəri Qorxmaz Hüseynovun vəzifəyə təyin olunduğu 2011-ci ildən bəri etdiyi çıxışlara diqqət yetirdikdə görünür ki, o, daim hazırlanmış olduğunu dediyi bir plandan bəhs edir. 2013-cü ildə ASC sədrinin mətbuata verdiyi məlumata görə, söhbət Bakı şəhərinin içməli, tullantı və yağış suları infrastrukturlarının 2035-ci ilə qədər perspektiv inkişafını nəzərdə tutan "Master Plan"dan gedir. **Q.Hüseynov deyir ki, bu plana əsasən Bakı şəhəri və Abşeron yarımadasının su-kanalizasiya infrastrukturu xeyli genişlənərək bütün yaşayış məntəqələrini əhatə edəcək:** ""Master Plan"a uyğun olaraq Abşeron yarımadasında 5900 km su, 7100 km kanalizasiya, 970 km yağış suları xətləri çəkiləcək. Bunlarla yanaşı, tutumu 1 milyon 345 min kubmetr olan 80-dən çox su anbarı, ümumi məhsuldarlığı sutkada 1 milyon 375 min kubmetr olan 11 çirkab sutəmizləyici qurğunun tikintisi də nəzərdə tutulur".

**Q.Hüseynovun 2013-cü ildən təbliğatını apardığı "Master Plan"ın icrasından hələ ki paytaxtımız real nəticə görə bilmir. İllərdir hər yağış mövsümündə Bakı küçələri sel sularına təslim olur. Hətta 2016-cı ildə prezidentin sərəncamı ilə paytaxtın sel sularını ötürmə sisteminin təkmilləşdirilməsi üzrə xüsusi işçi qrup da yaradılıb. Q.Hüseynov tərifli planını həmin qrupun ilk iclasında da təqdim edib. Bildirib ki, Abşeron yarımadasının su təchizatı və kanalizasiya sistemlərinin müasir standartlara uyğun yenidən qurulması üçün beynəlxalq təcrübəyə malik şirkətlərin iştirakı ilə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla "Master Plan" hazırlanıb:** "Sənədin hazırlanması zamanı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin "Böyük Bakının Regional İnkişaf Planı", Dövlət Statistika Komitəsinin və digər qurumların məlumatları nəzərə alınıb. Ümumilikdə 18 bölmədən ibarət olan "Master Plan" hazırlanarkən şəhərsalmanın inkişafı, əhalinin artımı və sıxlığı, turizmin perspektivləri, təmizlənmiş çirkab suların təkrar istifadəsi, ekoloji tarazlıq və digər amillər əsas götürülüb".

Hələ iki il əvvəl "Azərsu" rəhbəri "Master Plan"a uyğun olaraq, su təchizatı və kanalizasiya sisteminin müxtəlif tullantılardan təmizləndiyini iddia etsə də, bir il sonra yağış suları yenidən Bakıda ciddi fəsadlara yol açıb: 2017-ci ilin oktyabrında yağış suları Nizami rayonunun Qara Qarayev prospekti, Mehdi Abbasov küçəsində böyük çuxur yaradıb. Rəsmi qurumların məlumatından aydın olub ki, magistral yolun kanalizasiya kollektoru olan hissəsi çöküb. Nəticədə su yol yatağını yuyub və 200 metr radiusda yol dağılıb.

Onu da qeyd edək ki, Bakının su və kanalizasiya sistemi dövlət büdcəsi və xarici kreditlər hesabına ən çox investisiya yatırılan sahələrdən biridir. 1998-ci ildən bəri bu istiqamətə Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi maliyyə institutlarından yüz milyonlarla dollar kreditlər cəlb olunub. Təkcə bir tranşda bu layihənin icrasına 88 milyon dollar ayrılıb. Eyni zamanda "Azərsu" ASC-yə dövlət büdcəsindən hər il külli miqdarda vəsait ayrılır.

Müstəqil ekspert Natiq Cəfərlinin hesablamalarına görə, 1990-cı ildən bəri beynəlxalq maliyyə institutları tərəfindən Bakıda kollektorların, su və kanalizasiya sistemlərinin yenilənməsinə və təmirinə azı 1,6 milyard dollar ayrılıb. Dövlət büdcəsindən müxtəlif illərdə bu sahəyə ayrılan vəsait isə 7 milyard manata qədərdir.

**Bu qədər vəsaitin ayrılmasına rəğmən, "Azərsu" rəhbəri hələ də Bakının kanalizasiya və suötürücü sistemlərinin yarıdan çoxunun istismar müddətinin bitdiyini deyir:** "Abşeron yarımadasının su təchizatı və kanalizasiya sistemlərinin, su kəməri şəbəkəsinin 70 faizi istismar müddətini çoxdan başa vurduğundan böyük həcmdə su itkiləri yaranır. Nəticədə istehlakçıların keyfiyyətli və dayanıqlı su təchizatında problemlər meydana çıxır, binaların zirzəmiləri su ilə dolur". Q.Hüseynov və tabeliyindəkilər hər fürsətdə istehlakçılara təqdim etdikləri xidmətə görə maya dəyərindən 2 dəfə az pul aldıqlarını, buna görə də zərər çəkdiklərini bəyan edirlər. ASC-nin rəsmi hesabatından aydın olur ki, ötən il "Azərsu" əvvəlki ilə nisbətən 41,5 faiz az - 162 min manat mənfəət vergisi ödəyib və ili 508,35 milyon manat xalis zərərlə başa vurub. Səhmdar cəmiyyətinin yığılmış zərəri 5 milyard 904,502 milyon manata çatıb. Bunun 5 milyard 843 142 milyon manatlıq hissəsi 400 milyon manatlıq nizamnamə kapitalı, 1 milyard 568,732 milyon manatlıq əlavə ödənilmiş kapital və 3 milyard 874,41 milyon manatlıq dövlət investisiyaları hesabına kompensasiya edilib.

Belə görünür ki, "Azərsu" ASC ona həvalə edilən milyardlarla manatı elə xərcləyib ki, hələ istismar müddəti bitən xətlərin yarısı belə təzələnməyib. Yenə də sual yaranır ki, bəs alınan kreditlər, büdcədən ayrılan pullar hara və hansı məqsədlərə xərclənib? Bu, hazırda Q.Hüseynovun cavablandırmalı olduğu ən mühüm sualdır.

**❑ TURQUT,**
**"Yeni Müsavat"**

# Kənd təsərrüfatı nazirinin yeni qadın müavini kimdir?



**Xəbər verdiyimiz kimi, prezident İlham Əliyev kənd təsərrüfatı nazirinə yeni müavin təyin edilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncamla İlhamə Qədimova İnam Kərimovun müavini təyin edilib. BakuPost yeni nazir müavininin qısa dosyesini təqdim edir.**

İlhamə Qədimova Bakı şəhərində anadan olub. 1993-2009-cu illərdə Türkiyə Respublikasının Ankara və Mərmərə universitetlərində hüquqşünas ixtisası üzrə bakalavr, dövlət hüququ üzrə magistratura, doktorantura təhsili alıb və hüquq elmləri üzrə doktor elmi dərəcəsi alıb.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür. 2010-2012-ci illərdə Prezident yanında Dövlət Qulluğu Komissiyasında Hüquqi təminat şöbəsində baş mütəxəssis vəzifəsində çalışıb. 2012-ci il 18 dekabr tarixindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Hüquqi təminat şöbəsinin müdiri vəzifəsində çalışıb.

İnam Kərimovun kənd təsərrüfatı naziri təyin edilməsindən sonra, 2018-ci ilin may ayından Kənd Təsərrüfatı Nazirliyinin hüquq şöbəsinin müdiri vəzifəsində çalışır.

# Azərbaycanda qızıl və gümüş ucuzlaşıb



**Azərbaycanda qızıl və gümüş ucuzlaşıb. "Trend"in məlumatına görə, sentyabrın 24-də qızılın qiyməti sentyabrın 21-i ilə müqayisədə 20,91 manat azalaraq 1 unsiya üçün 2035,104 manat təşkil edib.**

Gümüş 0,2624 manat ucuzlaşaraq 1 unsiyası üçün 24,1916 manata bərabər olub.

Platinin qiyməti 18,003 manat azalaraq 1403,69 manat, palladiumun qiyməti isə 11,9425 manat azalaraq 1778,7525 manat təşkil edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018



# Ermənistanın təyyarə təxribatına Azərbaycandan sərt xəbərdarlıq

## İşğalçı ölkə BMT Baş Assambleyasında keçiriləcək görüş ərəfəsində Qarabağda hərbi təlimlər keçirməyə qərar verdi; **Bakıdan cavab:** “Düşmənin istənilən uçuş vasitəsi tərəfimizdən dərhal neytrallaşdırılacaq”

**Ermənistan hərbi aviasiyası cəbhəyanı zonada 3 gündür ki, provokasiya xarakterli uçuşlar həyata keçirir. Davamlı olaraq mövqelərimiz üzərində döyüş manevrləri yerinə yetirən düşmən hərbi aviasiyası dünən daha açıq şəkildə döyüş kursuna çıxaraq uçuşlar keçirməklə mövqelərimizə atəş açmağa cəhd edib.**

BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü bugün - sentyabrın 26-da keçiriləcək. Əvvəlcədən xəbər verildiyi kimi, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin və ATƏT sədrinin səhra köməkçisinin iştirakı ilə keçiriləcək görüşdə Qarabağ məsələsi növbəti dəfə müzakirə mövzusu olacaq.

Ancaq işğalçı Ermənistanın davranışları və təxribatçı mövqeyi əvvəlcədən bu danışıqların hansısa müsbət nəticə verəcəyini şübhə altına alır. Belə ki, “danışıqlar prosesinə sadiqlik” bəyanatını verən Ermənistan elə danışıqlara hazırlıq ərəfəsində beynəlxalq hüquqa zidd növbəti addım atmağa qərarlı olduğunu nümayiş etdirib. İşğalçı ölkənin mediasının yaydığı məlumata görə, Ermənistan ordusu Qarabağda hərbi təyyarələrin və helikopterlərin iştirakı ilə təlim uçuşları keçirəcək. Bu isə Azərbaycanın müharibəyə cəlb olunması istiqamətində növbəti addımdır. Rəsmi Bakı bir qayda olaraq sülh danışıqlarını davam etdirməyə, məsələni ədalətli şəkildə, dinc yolla həll etməyə hazır olduğunu bəyan etdiyi halda, Ermənistan hökuməti savaş ritorikasına üstünlük verir və sərgilənən davranış da təxribatların davam etdiriləcəyini təsdiqləyir.

Əslində Ermənistan ordusuna məxsus helikopterlərin işğal olunmuş ərazilərimizin səmasında təlim uçuşları keçirməsi ilk hadisə deyil. İşğalçılar hətta bu ərazilərdə şou uçuşları da həyat keçiriblər. Ancaq artıq uçuşların hərbi təyyarələrlə həyata keçirilməsi niyyəti aşkar həyasızlıqdır. Özü də bu addımın BMT Baş Assambleyasının sessiyası ərəfəsində atılması elə beynəlxalq təşkilatlara, Təhlükəsizlik Şurasının 25 il əvvəl qəbul etdiyi 4 qətnaməyə tüpürməkdir. Ancaq bunun qarşılığında BMT rəhbərliyinin Ermənistan hakimiyyətinə ünvanlandığı təbrik məktubunda təriflər yağdırmasının özü nonsesdir.

Xatırladaq ki, 2014-cü ilin noyabrında Ermənistan ordusuna məxsus helikopterlərdən biri təlim uçuşu həyata keçirdiyi zaman vurulmuşdu. O zaman da işğalçı ölkə davamlı şəkildə təxribatlara əl atırdı və sonda ağır məğlubiyyətə uğradı. Hətta o vaxt bəzi erməni ekspertlər bu təxribatın arxasında hakimiyyətini qorumaq üçün etirazçı kütlənin diqqətini daxildən yayındırmaq istəyən eks-prezident Serj Sərkisyanın dayandığını iddia edirdilər. Hazırda da baş nazir Nikol Paşinyan və onun komandası var gücü ilə daxildəki etirazları arxa plana keçirməkdən ötrü Qarabağda gərginliyi tətikləyirlər.

**Artıq Azərbaycan Ermənistanın bu təxribatçı hərəkətinə sərt reaksiya verib və qəti xəbərdarlıq edib. Müdafiə Nazirliyinin bəyanatında deyilir:** “Ermənistan hərbi-siyasi rəhbərliyi qoşunların qarşıdurma xəttində vəziyyətin gərginləşdirilməsinə yönəlmiş növbəti təxribat xarakterli addım atır. İşğal olunmuş ərazilərimizdə hərbi aviasiyanın cəlb olunması ilə təlim uçuşlarının keçirilməsi barədə düşmən tərəfinin yaydığı məlumat bunun əyani sübutudur.

Müdafiə Nazirliyi bəyan edir ki, ön xətdə yerləşən bölmələrimizin mövqelərinə yaxınlaşmağa cəhd göstərən düşmənin istənilən uçuş vasitəsi tərəfimizdən dərhal neytrallaşdırılacaq. Baş verə biləcək itkilərə görə məsuliyyət tamamilə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək".

Düşmənin təxribatı bununla bitmir. Bu ərəfədə Kəlbəcər dağlarında müxtəlif terrorçu qruplaşmalarının təlim keçdiyi bildirilir. Türkiyədəki mənbələrin də təsdiqlədiyinə görə, onlar arasında “PKK” terrorçuları da var. (Moderator.az) Mirkazım Laçın Alxaslının “YouTube” kanalına rayonun Nadirxanlı kəndində təlim keçən bir dəstənin görüntüləri yerləşdirilib. Məlum olur ki, aralarında gənc qızların çoxluq təşkil etdiyi dəstə dağlıq, meşəlik ərazilərdə, çay içərisində cürbəcür təlimlər icra edir, müxtəlif növ və kalibrli atıcı silahlardan sərrast atəş açmağı öyrənirlər. Qeyd edək ki, bundan əvvəl də Ermənistanda təlimlər keçən PKK-çıların Türkiyə ərazisinə keçməyə hazırlaşdığı barədə xəbər yayılmışdı. İşğalçı ölkə terror təşkilatları ilə əməkdaşlığını davam etdirir, həmçinin onlara işğal altındakı ərazilərimizdə təlim düşərgələri yaradıb. Bu isə həm Türkiyə, həm də Azərbaycanın təhlükəsizliyini təhdid edən məsələdir.

Qeyd edək ki, Ermənistan ordusunun hərbi təyyarələrin və helikopterlərin iştirakı ilə təlim uçuşlarını 25-28 sentyabr tarixində həyata keçirəcəyi bildirilir.

**Hərbi ekspert Tərlan Eyvazov Ermənistan ordusunun Qarabağda hərbi təyyarələrin və helikopterlərin iştirakı ilə təlim uçuşları həyata keçirməsinə münasibət bildirib. O, “yeniçağ.az”a bildirib ki, kiçik təyyarələr və helikopterlər Qarabağda alçaqdan uçuşlar həyata keçirirlər:** “Bildiyim qədər, qırıcı təyyarələrin uçuşu bu günə qədər olmayıb. Əgər belə uçuşlar baş tutarsa, bu, Azərbaycan xalqına, dövlətinə və ordusuna həqarət deməkdir. O qırıcı təyyarələr Qarabağ səmasında görünən kimi vurulmalıdır”. **T.Eyvazov bildirib ki, Azərbaycan ordusu erməni hərbi təyyarələrini və helikopterlərini vurmağa borcludur:** “Bəziləri düşünür ki, Azərbaycan erməni qırıcılarını və helikopterlərini vurduğu təqdirdə müharibə baş verəcək. Bu, qətiyyən baş verməyəcək. Çünki o ərazilər Azərbaycana məxsusdur və ordumuz bu addımı atmaqda haqlı olacaq. 2014-cü ildə Ağdam istiqamətində erməni helikopterinin vurulması hər birimizin xatirindədir. O zaman müharibə oldu? Yox! Çünki Azərbaycan tərəfi haqlı idi. Ona görə də düşmənə icazə vermək olmaz ki, bizi təhqir etsin”.

**“Düşünürəm ki, bu, çox vaxtında edilən xəbərdarlıqdır. Bundan düşmən gərək nəticə çıxarsın. Əgər nəticə çıxarmasa, Azərbaycan Silahlı Qüvvələri mümkün hər hansı bir təxribatı əvvəlcədən qabaqlayıb onun qarşısını alacaq”. Bu sözləri isə qondarma “DQR”in aviasiya təlimlərinə qarşı Müdafiə Nazirliyindən edilən xəbərdarlığa münasibət bildirən ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib. O bildirib ki, bu gün Ermənistanda Paşinyanın gündən-günə aşağı düşən nüfuzunu ört-basdır etmək üçün erməni rəhbərliyi yenə də Qarabağ faktorundan istifadə etməyə çalışır:** “Qarabağ kartını əldə tutaraq, daxili auditoriyanın, cəmiyyətin fikirlərini sosial problemlərin həlsizliyindən yayındırmaq istəyirlər. Paşinyan hakimiyyətə gələndə verdiyi vədləri yerinə yetirə bilməməsini Qarabağ məsələsi ilə ört-basdır etmək niyyətindədir. Onun bu addımı Qarabağda olan vəziyyəti gərginləşdirir və o, bu gərginliyə cəmiyyətin diqqətini cəlb etmək, daxili problemlərdən yayınmaq və hakimiyyətinin ömrünü uzatmaq məqsədi daşıyır”. **Axar.az-ın məlumatına görə, polkovnik qeyd edib ki, beynəlxalq qurumların Ermənistana etdiyi bütün çağırışlara, müraciətlərə baxmayaraq, Paşinyan danışıqlardan yayınmaq üçün addımlar atır:** “Çünki onlar danışıqlara gedəndə konkret hansısa təkliflərlə çıxış etməlidirlər. Bundan yayınmaq üçün hazırda Ermənistan tərəfi müəyyən istiqamətlərdə təxribat törətməyə çalışır. Cənab prezident öz çıxışında bu təxribata diqqət çəkdi və Azərbaycan ordusunun bu yaxınlarda təmas xəttində erməni təxribatının qarşısını qəti şəkildə aldığını qeyd etdi”. **Polkovnikin sözlərinə görə, ermənilərin təlim keçirmək istədikləri məkan Azərbaycan əraziləridir:** “Hətta Dağlıq Qarabağa aid əgər status müzakirəsi varsa, Dağlıq Qarabağ ətrafındakı 7 rayona heç bir iddia ola bilməz və Azərbaycan bu ərazidə istənilən addımı gerçəkləşdirə bilər. Bu ərazilərdəki düşmən uçuş aparatları da məhv edilə bilər. Ona görə də MN belə sərt çıxışlarla Ermənistana öz xəbərdarlığını edib və əvvəlcədən də ola biləcək təxribatlar nəticəsində itkilər və digər vəziyyətə görə bütün məsuliyyətin işğalçı qüvvələrin üzərinə düşdüyünü bəyan edib”.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov “Yeni Müsavat”a açıqlamasında Ermənistanın təxribatının arxasında dayanan məqsədlər barədə ilginc açıqlama verdi:** “Bunların məqsədi vəziyyəti aydınlaşdırmaqdır. Paşinyan aydınlaşdırmaq istəyir ki, müharibə başlasa, Rusiya Ermənistana kömək edəcək, ya yox? Məlumat bundan ibarətdir ki, nə Rusiya, nə də KTMT bunlara köməyə gəlməyəcək”.

**Eks-nazir qeyd etdi ki, indiki mərhələdə daxili siyasətdə də vəziyyət gərgindir və hökumət diqqəti Qarabağa yönəldir:** “Paşinyana müxalif olan insanlar hamısı ruspərəst qüvvələrin ətrafına yığılıb. Paşinyan istəyir ki, Qarabağda "test" edəndən sonra nəticədən asılı olmayaraq Qərb siyasətini açıq şəkildə həyata keçirsin. O düşünür ki, Ermənistanı bu yolla böhrandan çıxaracaq. Elə Nyu-Yorkda erməni diasporu ilə görüşdə də deyib ki, artıq bizə diasporanın xeyirxah yardımları lazım deyil, Ermənistana investisiyalar qoymaq gərəkdir. Bu yolla o, artıq istiqaməti göstərir ki, qərbpərəst siyasəti olsa, Qərbdən ölkəsinə investisiyalar gələcək".

İrəvandakı mer seçkilərində namizədi qalib gələn N.Paşinyan diqqəti xarici düşmənə yönəltməklə daxildə parlament seçkilərində də qələbəsini təmin edəcəyini düşünür. Bu mənada onun komandası israrla oğlunu Qarabağa əsgər yollayan Paşinyanın fitnəkar siyasətinə uyğun davranırlar. Ancaq belə görünür ki, erməni baş nazir arzusuna çata bilməyəcək. Ermənistanın sabiq prezidenti Robert Köçəryanın Paşinyana qarşı İrəvan məhkəməsi qarşısında iddia qaldırması da bunu sübut edir. Erməni mediasının məlumatına görə, Köçəryan şərəf və ləyaqətini ictimai böhtanlardan qorumaq üçün məhkəməyə müraciət edib. Rusiya prezidenti Vladimir Putin Azərbaycandan sonra Ermənistana da səfər edəcək. Rusiya lideri ilə dostluq əlaqələri olan Köçəryanın Paşinyanın üzərinə getməsi çox maraqlı hadisələr vəd edir. Hər halda, Köçəryan Paşinyanı peşman etmək istəyir. Düzdür, erməni baş nazir də geri çəkilmək istəmir. Ermənistan Polis Qoşunlarının keçmiş komandanı general-leytenant Levon Yeranosyanın Xüsusi İstintaq Xidmətinə çağırılması da bunu nümayiş etdirir. Onun adı bir sıra dinc aksiyaları zorakılıqla dağıtmaqda hallanır. N.Paşinyan üçün ən unikal vəziyyət ölkəsinə növbəti “aprel müharibəsi"ni dadızdırmaq və sarsılmış erməni xalqının səslərini alıb parlament çoxluğuna nail olmaqdır. Amma bu da risklidir, çünki Azərbaycan ordusunun növbəti döyüşlərdə harada dayanacağını kimsə deyə bilməz...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

**Bu, çox da geniş araşdırılmamış bir mövzudur. Amma biz sizə “uzun müddət ac qalmaqla bütün qorxunc xəstəliklərdən qurtulacaqsınız” deyə anons versək, diqqətinizi çəkəcək. Ac qalmaq ölümə bərabərdir düşüncəsinə qapılmadan öncə “Yeni Müsavat”ın bu yazısını oxumanız məsləhətdir.**

# Aclıqla bütün xəstəliklərə qalib gəlmək olar, əgər...

## Və ya autofaqiya barədə bilmədiklərimiz; uzun ömürlü olmaq üçün bu məhsullardan uzaq durun…

Ondan başlayaq ki, yapon alimi, Tokio Texnoloji İnstitutunun professoru 71 yaslı Yohsinari Ohsumi autofaqiya mexanizmlərinin kəşfinə görə 2016-cı ildə tibb üzrə Nobel mükafatı ilə təltif olunub. Professor 27 ilini autofoqiyanın elmi tədqiqatlarına sərf edib. O, bu sahədə elmi araşdırmalarına 1988-ci ildə başlayanda autofaqiya artıq tibb elminə məlum idi. İlk dəfə 1974-cü ildə autofoqiya fikrini irəli sürən elm adamı Kristian Dyub olmuşdu.



**Autofaqiya nədir?**

Autofaqiya hüceyrələrin özünü yeniləməsi və bədənin həyati fəaliyyəti üçün vacib təbii prosesdir. Ohsumi araşdırmalar zamanı aşkar edib ki, insan orqanizmindəki hüceyrələr öz-özünü yeniləyir və hüceyrə daxilində zədələnmiş və köhnəlmiş hüceyrələri təmizləyir, yeni autofaqiya prosesi gedir. Onun bu kəşfi digər xəstəliklərin müalicəsinə işıq tutub. Elm adamları bir çox xəstəliklərin, o cümlədən xərçəng hüceyrlərinin yayılmasının və beyin xəstəliklərinin autofaqiya sayəsində qarşısının alınacağına əmindilər. Onlar bu sahədə öz elmi araşdırmalarını davam etdirirlər.

Zaman-zaman insan bədənində köhnəlmiş (zibilə atılmış) hüceyrələr yığını qalır. Hüceyrələr öz hərəkət fəaliyyətinə görə insanlara bənzəyirlər. Artıqları (zibilləri) torbalara doldurur (otofagozomlar) və konteynerlərə anbarlayırlar. (lizozomlar). Ən çirkli olanları yox edib, həzm edirlər (yeyirlər), bəziləri də yenidən dönüşdürülərək enerji yaratmağa sərf edilir.

İnsan bədənində həyati üçün önəmli olan iki qarşılıqlı proses var: yeni proteinlərin, yeni hüceyrələrin sintezi və köhnə hüceyrələrin təmiri - təmizlənməsi. Bədən bütün gücünü yeni hüceyrələrin sintezinə yönəltdikdə autofaqiya prosesi yavaşıyır və insanın yaşlanması sürətlənir. Əksinə, autofaqiya hakim olduğu təmir-təmizlənmə prosesi getdikdə isə yaşlanma yavaşlayır, proteinlərin (zülalların) sintezi dayandırılır. Zülallar insan orqanizmində iki növdə, bədənin strukturunun bərpası (köhnə hüceyrələrin bərpası) və yeni hüceyrələrin yaşlanmasında rol oynayırlar. Zülallar həmçinin amin turşuları və meteoninlər orqanizm üçün faydalı olduğu qədər də yaşlanmaya səbəb olan amillərdəndir. Bunlar ən çox yumurtanın, qırmızı ətin, süd və süd məhsullarının tərkibində mövcuddur. Sağlamlıq və uzun ömürlülük naminə bacardıqca sözügedən tərkibli məhsullardan uzaq durmaq lazımdır.

Karbohidratlar: karbohidratlı qidalar hüceyrlərin yenilənməsini və köhnə hüceyrələrdən təmizlənmə prosesini aparır. Karbohidratlar ən çox bitkilərin tərkibində var. Bədəni yeniləmək üçün zülallardan, amin turşularından, meteoninli qidalardan az qəbul etmək lazımdır. Bol su içilməli, çay şəkərsiz, qəhvə südsüz içilməlidir. Qidalananda da ən çox xam (çiy) tərəvəzlərə üstünlük verilməlidir. Orqanizm xaricdən qidayla zülalları, amin turşularını və meteonini almadıqda hüceyrələr bədənin yenilənməsinə və köhnə hüceyrələrdən təmizlənmə prosesinə yönəlir. Və həyati proses üçün lazım olan karbohidratları, zülalları hüceyrə daxilindən əldə etməyə çalışır. Bununla yanaşı, Yahusinari Ohsumi aşkar edib ki, aclıq zamanı hüceyrələr özlərini yeniləyir və zədələnmiş hüceyrələri enerji üçün anbarlayıb, köhnələri isə həzm edir. O, həftə ərzində 3 gün ardıcıl ac qalma sayəsində orqanizmin özünü yenilədiyini kəşf edib.

**Alimlər nə deyir?**

Ümumiyyətlə, tibdə autofaqiya çox az öyrənilib. Sadəcə, buna ümidlər böyükdür. Hesab edilir ki, bu proses aktiv şəkildə çəki itirilməsinə, sağlamlığa və ömrün uzanmasına xidmət edəcək.

Şübhəsiz ki, siçanlar üzərində keçirilən təcrübə bu prosedurun uğurlu olduğunu sübut edir. Bu fikri müdafiə edənlərdən biri də David Rubinşteyndir. Molekulyar nerogenetika üzrə professor, Kembric və Britaniya elmi araşdırmalar institutunun elmi işçisi bildirib ki, bu versiya elm aləminə məlum olan gündən heyvanlar üzərində təcrübələr keçirilib. Aclığa məhkum edilən heyvanların daha uzun, sağlam və tam qaldıqları məlum olub. Amma hələlik bu təcrübənin insanlar üzərində nə qədər effektiv olduğu məlum deyil: **“Məsələn, siçanlar üzərində bu aclığın nəticəsini 24 saat sonra müşahidə etmək lazımdır. Daha doğrusu, onların beynində nəticə özünü bir sutka sonra göstərir. Amma digər orqanlarda, məsələn, böyrəkdə bu, daha tezdir. Doğrudur, biz bu cür aclığın faydalı olduğunu bilirik. Amma müsbət nəticələr əldə etmək üçün bunun nə qədər davam etməli olduğu barədə dəqiq məlumatımız yoxdur”.**

“Autifaqiya” sözü yunan mənşəlidir. Auto (özü) və “faqin” (yemək) sözlərindən yaranıb. Bu, elə bir prosesdir ki, yararsız hüceyrələr məhv olur və öz komponentlərini yaradır. Bu, enerji mənbəyi ilə orqanizmi təmin edir və yeni hüceyrələrin yaradılması üçün mərhələ sayılır. Orqanizmə hər hansı infeksiyanın düşməsi və autofaqiyanın işə başlaması ilə bakteriyaların, virusların yox edilməsi prosesi gedir.

Autofaqiya prosesi 20-ci əsrin 60-cı illərində elmə məlum olub. Amma onun əhəmiyyəti 90-cı illərdə qabardılıb. Bu da Yosinori Osuminin araşdırmalarından sonra baş verib. **“Biz müəyyən etdik ki, bu üsul insanları Parkinson, Gentinqton və demensiyanın bir neçə formasından xilas edir”.** Bunu da David Rubinşteyn deyib. Eyni zamanda bu proses infeksiyalarla mübarizə və soyuqlama prosesi ilə mübarizədə qalib gəlir. Sağlam həyat tərzi ilə bağlı bütün araşdırmaların mərkəzində isə diyetanın gücləndirilməsi kimi məqamlar yer alır.

Məsləhətçi diyetoloq Naomi Uittel 15 günlük proqram təklif edib. Bu proqram həftədə 3 dəfə olmaqla, 16 saatlıq aclıq təklif edib. Bu proqram özündə həmin günlərdə zülal istehsalını da qadağan edir: **“Bəzi insanlar 15 gün ərzində bu üsul sayəsində 3 kilo atıblar. Digərlərində arterial təzyiq nizama düşüb, eyni zamanda qırışları düzəlib”.**

Professor Rubinşreynin sözlərinə görə, bu tövsiyələr heç bir ziyan verə bilməz: **“Siz qeyri-sağlam həyat tərzi keçirirsizsə, daim nəsə yeyirsizsə və ya ziyanlı qidalar qəbul edirsizsə, bu prosesə qoşula bilməyəcəksiz”.**

Britaniya və Norveç alimləri mədə-bağırsaq xəstəlikləri, o cümlədən xərçəng zamanı qəbulu vacib olan qidaların adlarını açıqlayıblar. Britaniyanın Uorik Universitetinin apardığı tədqiqatın nəticələrini Nature Communications açıqlayıb. Nar, qırmızı üzüm, armud, göbələk, mərcimək, soya və yaşıl noxud mədə-bağırsaq xəstəliklərinin profilaktikasında xüsusi effektə malikdir. Alimlərin sözlərinə görə, sözügedən qidalar bədəndə iltihab prosesinin inkişafının qarşısını alaraq autofaqiyaya (hüceyrənin daxilində, yenilərilə əvəz olunmuş köhnə orqanoidlərin (məs. mitoxondri və s.), zülal və digər maddələrin həll olması, bir sözlə, lazım olmayan, xüsusi zərərli komponentlərdən ibarət hüceyrələrin məhv edilməsidir) müsbət təsir göstərir.

Alimlər bu qənaətə autofaqiyanın normal mexanizminin təsirlərini müəyyənləşdirərkən gəliblər. Autofaqiya düzgün işləməyəndə, belə zülallar toplanır və iltihaba təhrik edir.

**Araşdırma Nobel mükafatı qazanıb**

2016-cı ildə İsveçin paytaxtı Stokholmda tibb sahəsi üzrə Nobel mükafatı laureatı autofaqiya mexanizmlərinin kəşflərinə görə yapon alimi Yesinori Osumi layiq görülüb. Bu qərar Nobel Assambleyasının 50 üzvü tərəfindən səsvermə yolu ilə qəbul edilib.

Y.Osumi 1945-ci ildə Yaponiyanın Fukuoka şəhərində anadan olub. 1974-cü ildə Tokio Universitetində doktorluq dərəcəsini alıb. Nyu-Yorkun Rokfeller Universitetində üç il araşdırmalar aparan alim daha sonra Tokio Texnologiya İnstitutuna gələrək burada tədqiqat qrupu yaradıb. Yapon bioloqu hüceyrə daxili parçalanma prosesinin tədqiqi ilə iyirmi ilə yaxın bir müddətdə məşğul olub. Tədqiqatlar nəticəsində alim tərəfindən mayada autofagiyaya cavabdeh olan genləri ayırmaq və digər orqanizmlərin hüceyrələrində oxşar prosesləri təsvir etmək mümkün olub. Alimin tədqiqatları müxtəlif fizioloji proseslərin (aclığa adaptasiya, yoluxmaya reaksiya) hissələri kimi autofagiya anlayışında yeni istiqamətin əsasını qoyub.

O, autofaqiya - “özü-özünü yemə” adlanan mexanizmi kəşf edib. Sadə dillə desək, insan hüceyrələri orqanizmdə zərərli və artıq maddələri tanıya, sonra onları xüsusi “kisələrə” - membranlara yerləşdirərək həzm edə bilir. Bu həzmdən alınan “xam mal” isə yeni hüceyrələrin yaranmasına sərf olunur.

Məlum olub ki, autofaqiya prosesi xüsusən stress vaxtı - məsələn, yeməkdən özünü saxlayanda fəallaşır. Başqa sözlə, insan hüceyrələri qidalanmağa bir şey tapmayanda, onlar orqanizmdə zərərli maddələri, o cümlədən xəstəlik yaradan bakteriyaları tapır və “yeyir”.

Beləliklə də yapon aliminin araşdırması, məsumların orucun orqanizmə faydası və orqanizmi zərərli elementlərdən təmizləməsi haqqında buyurduqları hədisləri təsdiq edir.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 201 (7090) 26 sentyabr 2018

# “Exchange”lərin niyə açılmaması ilə bağlı ilginc iddia

**Manatın iki dəfə devalvasiyaya uğramasının ardından hökumətin milli valyutanın sabitliyini təmin etmək üçün atdığı addımlardan biri də maliyyə bazarında mühüm rol oynayan “Exchange”lərin bağlanması oldu. Ötən müddət ərzində manatın məzənnəsində sabitlik bərpa olunsa da, valyutadəyişmə məntəqələrinin (VDM) yoxluğu daha çox hiss olunmağa başladı.**

## Maliyyə Bazarlarına Nəzarət Palatası açıqlama verdi; “Exchange”lərlə müxalifətin nə əlaqəsi?




Xüsusən də son iki ildə qeyri-neft sektorunun, o cümlədən turizmin inkişafı ilə bağlı görülən işlər və ölkəmizə gələn turist sayının bir neçə dəfə artması VDM-lərin bərpasını zəruri etdi. Bu səbəbdən 2017-ci ilin sonu, 2018-ci ilin əvvəlində “Exchange”lərin yeni şərtlərlə bərpası üçün lazım olan hüquqi aktlar qəbul olundu və bu qurumların yenidən fəaliyyət göstərməsinə icazə verildi. Valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın verilməsi qaydaları müəyyən edildi. Lakin təəssüf ki, hələ də ölkədə bir dənə də olsun “Exchange” fəaliyyət göstərmir.

**Bəs səbəb nədir? Niyə yetərincə gəlirli sahə olan valyuta mübadiləsi işinə heç bir sahibkar maraq göstərmir? Məsələ ilə bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) mətbuat xidmətindən modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, valyuta mübadiləsi fəaliyyətini tənzimləyən bütün normativ xarakterli hüquqi aktlar qüvvəyə mindikdən sonra başlanacaq:** “Valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın verilməsi üçün müraciətlərin qəbuluna ”Valyuta tənzimi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında Prezident Fərmanı ilə müəyyən edilmiş valyuta mübadiləsi fəaliyyətini tənzimləyən bütün normativ xarakterli hüquqi aktlar qüvvəyə mindikdən sonra başlanacaq.

“Valyuta tənzimi haqqında” Qanunla müəyyən edilmiş qaydada rezident hüquqi və fiziki şəxslər və qeyri-rezident hüquqi şəxslərin filialları valyuta mübadiləsi fəaliyyətinə lisenziya ala bilərlər".

**Palata “Valyutadəyişmə məntəqəsi açmaq üçün müraciət edənlər varmı” sualını belə cavablandırıb:** “Valyuta mübadiləsi məntəqələrinin açılması üçün sənədlərin qəbulu valyuta mübadiləsi fəaliyyətini tənzimləyən bütün normativ xarakterli hüquqi aktların qüvvəyə minməsindən sonra başlanacaq”.

Bu istiqamətdə müzakirələr son günlər daha da genişlənib. Hətta iddialar var ki, “Exchange”lərin fəaliyyətinə nəzarət daha zəif olduğunda bu qurumlar xarici təşkilatların ölkədəki müxalif qüvvələri maliyyələşdirməsi üçün bir vasitə rolunu oynaya bilər. Məhz “Exchange”lər üzərindən bu pullar müxalifətə axıdıla bilər. Bu səbəbdən hökumət VDM-lərin açılmasında maraqlı deyil...

**“Yeni Müsavat”a açıqlamasında bu iddialara münasibət bildirən iqtisadçı ekspert Natiq Cəfərli dedi ki, müxalifətin maliyyələşdirilməsi ilə VDM-lərin fəaliyyətə başlaması arasında hər hansı əlaqə yoxdur:** “Valyutadəyişmə məntəqələrinin yenidən fəaliyyətə başlamamasının və ya bu prosesin gecikməsinin səbəbinin hər hansı formada müxalifətin maliyyələşdirilməsi ilə əlaqəli olduğunu düşünmürəm. Belə bir əlaqənin olmasını görməmişəm. Səbəblər başqadır. Əsas səbəb odur ki, ”Exchange"lərin açılması üçün tətbiq edilən qaydalar kifayət qədər sərtdir. Valyutadəyişmə məntəqəsi açmaq istəyən sahibkar ilk növbədə 50 min manat depozit qoymalıdır. Bundan başqa, “Exchange”lərin qurulmasında çox ciddi təhlükəsizlik qaydalarına əməl edilməlidir. Bu qaydalara gülləkeçirməz şüşədən, yanmaz seyfdən tutmuş siqnalizasiya və təhlükəsizlik sisteminin qurulmasına kimi bir sıra məsələlər daxildir".

**İqtisadçının sözlərinə görə, bütün bunların və sözügedən depozitin təmin olunması üçün 100 min manata yaxın vəsait lazımdır:** “Həmçinin illik lisenziya haqqı 5000 manatdır. Xərclərin bu qədər çox olması iş adamlarında bu sahəyə marağın yaranmamasına səbəb oldu. Birdən-birə 100 min manata yaxın xərc çəkilərək ”Exchange"lərin açılması sonradan həmin vəsaitin geri dönüşünü kifayət qədər çətinləşdirə bilər. Ona görə də əsas səbəb qaydaların sərt olması, 50 min manat depozit tələbinin qanuna salınmasıdır. Məhz bunlar sahibkarların yeni VDM-lər açmasına mane olur".

**Gənc müxalifət lideri, AG Partiyanın sədri Tural Abbaslı da iddiaları əsassız adlandırdı:** “Bunlar əsassız və qeyri-ciddi iddialardır. Əgər kimsə Azərbaycan müxalifətini maliyyələşdirmək istəsə, bunun yüz yolu var. Şərt deyil ki, bu pul valyuta olaraq daxil olsun və burada kütləvi şəkildə ”Exchange"lərdə dəyişdirilsin. Bunun daha asan yolları da var, “Exchange”lərin olması şərt deyil. O baxımdan iddialar əsassızdır. Əgər Azərbaycan vətəndaşı müxalifətə pul vermək istəyirsə, burada qanunsuz heç nə yoxdur. Yox, əgər xarici dövlətlər partiyalara pul verirsə, artıq qanun pozuntusudur. Hüquq-mühafizə orqanları da bunun üçün var, araşdırsınlar və aşkara çıxartsınlar. Atalar sözündə deyildiyi kimi, “bitə görə yorğan yandırmaq doğru olmaz”. Bu kimi səbəblərdən “Exchange”lərin açılmasının qarşısını almaq olmaz. Son illərdə Azərbaycana gələn turistlərin sayı artıb. Bu məntəqələrin olmaması həm turistlərə, həm vətəndaşlara çətinlik törədir. Müxalifətlə isə heç bir əlaqəsi yoxdur".

**❑ Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

# Yağış, palçıq vulkanı və Xəzərdə qasırğa-ekoloq danışır

## Telman Zeynalov: “Əminəm ki, iqlim oyunları gedir”

**Son günlər əsas gündəmdə olan məsələlər Bakıya yağan güclü yağış, Abşeronda baş verən palçıq vulkanı və Xəzər dənizində yaşanan qasırğadır. Bu məsələlər ətrafında səslənən fikirlər müxtəliflik təşkil edir.**



**Ekoloq Telman Zeynalov** “Yeni Müsavat”a bildirdi ki, bunlar iqlim dəyişikliyi ilə bağlı baş verir: “Bəzi yerlərdə havalar çox isti olur, elə yerlər də var ki, nəmişlik çox olur. Yağan son yağış bir saat davam etsəydi, bütün şəhər suyun içərisində olardı. Adicə bu yağış nə qədər asfaltı, yolları dağıtdı. Mən deyərdim ki, havada mənfi və müsbət təzyiqləri elə nizamlayırlar ki, qasırğa yaradırlar. Nəticədə su qalxır, 100-200 kilometrdən insanların başına xırda balıqları, qurbağaları tökür. Belə hadisələr yer kürəsində son 20 ildə tez-tez baş verir. Keçmişdə Qərb dövlətlərinin, kapitalistlərin qarşısında duran sovet hökuməti idi. Kommunistlər imkan vermirdilər ki, onlar çirkin oyunlar oynasınlar, iqlimlə bu və ya digər dərəcədə təcrübələrini aparsınlar. Yer kürəsində, fikir verin, bəzi yerlərdə yağış yağmır, bəzi yerlər isə hədsiz dərəcədə yağıntılı olur. Bunlar bir oyundur. Heç kəs müharibə etmək istəmir, çünki müharibədə özləri də həlak olurlar. İqlim sınaqlarından istifadə edib insanları qırmağı özlərinə borc bilirlər. 25 il bundan əvvəl qlobal istiləşməni ortalığa atırdılar. Guya karbon qazı havanı istiləşdirirdi. Yuxarıda 70-80% nəmişlikdir. Burada milyardlarla, trilyonlarla pul fırlanır. Səhəri gün də başqa şeyləri ortalığa atacaqlar. Hazırda Amerika ilə Çin arasında iqtisadi müharibə gedir. Bu da Rusiyaya da, Qərb dövlətlərinə də toxunur. Səhəri gün iqtisadi müharibə ilə əlaqədar nələrin baş verəcəyini kimsə deyə bilməz. Onlar iqlim silahlarından istifadə etsələr, proqnozlar vermək olar. Amma bundan qorxurlar. Çünki 1970-ci ildə bağlanmış müqavilə ilə iqlim silahlarından istifadə qəti qadağan olunub. Baxmayaraq ki, ara-sıra bundan istifadə edirlər”.

**Ekoloq palçıq vulkanının xeyirli tərəflərindən də danışdı:** “Məsələn, Azərbaycan hökumətinə mesaj verir ki, sənin torpağın altında həddindən çox var-dövlət var. Çünki indi oradan çıxan palçıq müalicəvidir. Onu da deyim ki, Xəzər dənizində baş verən qasırğa gözlənilməyən bir hadisədir. Mən 76 il ərzində buna rast gəlməmişəm. Qasırğalar baş verir, amma dənizdə yox, quruda. Özü də Naxçıvanda səhrada. Bu, mənfi və müsbət təzyiqlər arasında olur. Burada görün necə o silahlardan istifadə ediblər ki, Xəzərdə mənfi və müsbət təzyiqləri yaradıblar. Onlar 20-30 il bundan qabaq proqnoz veriblər ki, Xəzər dənizi quruyacaq, yaxud çəkiləcək. Şimal hissəsinin də quruyacağı barədə az söz deməyiblər. Bunlar qurduqları oyunlardır. Moskvada 4 saat yarım elə yağış yağıb ki, şəhər suyun altında qalıb. Ona tam əminəm ki, iqlim oyunları gedir. Bu oyunlarla dövlətlərə zərbələr endirirlər. Belə yollarla kənd təsərrüfatı da məhv olur, nəticədə qiymətlər qalxır. Bunların qarşısını almaq üçün bütün dünya xalqları ayağa qalxmalıdır. Kapitalistlərə imkan vermək lazım deyil ki, onlar bu oyunu oynasınlar”.

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**



## Hava ilə bağlı xəbərdarlıq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava ilə bağlı xəbərdarlıq edib.**

Sentyabrın 26-sı gündüzdən 28-i səhərədək Bakıda və Abşeron yarımadasında güclü şimal-qərb küləyinin əsəcəyi gözlənilir. Havanın temperaturu ötən günlə müqayisədə 2-4 dərəcə aşağı enəcək.

Azərbaycanın rayonlarında sentyabrın 26-sı gündüzdən 28-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə yağışın leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlə müqayisədə tədricən 3-5 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın keçəcəyi ehtimalı var.

# İranlı tələbəni öldürənlərə 90 il həbs cəzası verildi-qətlin təfərrüatı

## Saman Mohtatini öldürənlər evdən hər hansı qiymətli əşya əldə edə bilməyiblər



**Novxanıda iranlı iş adamının oğlunu öldürməkdə təqsirləndirilən dəstə üzvlərinin məhkəməsi keçirilib. Onlar evə qarət məqsədi ilə girsələr də evdən heç nə apara bilməyiblər. Həmin şəxslərin Kürdəmirdə də evə basqın etdiyi məlum olub.**

Musavat.com xəbər verir ki, bu cinayət işinə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Səbuhi Hüseynovun sədrliyi ilə baxılır. Təqsirləndirilən şəxslər 1979-cu il təvəllüdlü Yunus Camallı, 1967-ci il təvəllüdlü Natiq Babaverdiyev, Şəki şəhər sakini 1991-ci il təvəllüdlü Pərvin Əlməmmədov, Ağsu rayon sakini 1983-cü il təvəllüdlü Zahid Dünyamalıyev və İmişli rayon sakini 1989-cu il təvəllüdlü Ceyhun Talıblıdır. Onların hər biri həbsdədir.

Dəstə üzvlərindən yalnız Rəşidə Seyidova barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib və o, azadlıqdadır. Rəşidə Seyidova iranlı tələbənin ölümündə yox, başqa bir cinayət hadisəsində dəstə üzvlərinə kömək etməkdə təqsirləndirilir.

Dünən baş tutan məhkəmə prosesində hökm oxunub.

Məhkəmənin hökmü ilə Natiq Babaverdiyev 20 il, Yunus Camallı 20 il, Pərvin Əlməmmədov 14 il, Zahid Dünyamalıyev 12 il, Ceyhun Talıblı 20 il və Rəşidə Seyidova 4 il müddətinə azadlıqdan məhrum olunub.

Ev dustaqlığında olan Rəşidə Seyidova məhkəmə zalından həbs edilib.

Bildirək ki, qətl hadisəsi ötən ilin oktyabr ayında Sumqayıt şəhəri, Novxanı bağlar massivindəki villada baş verib. Rəsmi məlumata görə, İran İslam Respublikasının vətəndaşı Mohtati Saman Nemat oğlunun meyiti yaşadığı evdə aşkar olunub. Həyata keçirilən əməliyyat tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən şəxslər saxlanılıb.

İlkin istintaq tədbirləri nəticəsində müəyyən olunub ki, Y.Camallı, N.Babaverdiyev, C.Talıblı, P.Əlməmmədov və Z.Dünyamalıyev quldurluq yolu ilə özgə əmlakını ələ keçirmək məqsədilə qabaqcadan əlbir olub, 2017-ci ilin 11 oktyabrında, gecə saat 4:00 radələrində mərhumun yaşadığı ünvana gəlib, evə qanunsuz daxil olaraq Saman Mohtatini qəsdən öldürüblər. Amma dəstə üzvləri evdən hər hansı qiymətli əşya əldə edə bilməyiblər.



Dəstə üzvlərinə həmin evə basqın etməyi bir müddət əvvəl hadisənin baş verdiyi mənzilin qonşuluğundakı evdə usta işləyən Y.Camallı təklif edib.

Onlar cinayəti törətməyə Z.Dünyamalıyevin avtomobili ilə gediblər. O, hadisədən sonra yenidən dəstə üzvləri ilə Novxanı qəsəbəsində görüşərək, onların hər birini yaşadıqları ünvanlara aparıb. Saxlanılan şəxslər barəsində Sumqayıt ŞPİ-də aparılan əlavə əməliyyat tədbirləri ilə onların Kürdəmir rayon Xırdapay kəndində yaşayan Zahid Zərbəliyevə məxsus evə basqın etdikləri də məlum olub. Saxlanılan şəxslər ev sahibi və həyat yoldaşının əl-ayağını yapışqanlı lentlə bağlayaraq, mənzildə olan pul və qızıl-zinət əşyalarını quldurluq yolu ilə ələ keçiriblər.

Kürdəmir rayonunda baş verən quldurluq hadisəsində Pərvin Əlməmmədovun tanışı Rəşidə Seyidova da dəstə üzvləri ilə əlbir olub. O, saxlanılan digər şəxslərə Kürdəmir rayonunda yaşayan bibisinin evinə basqın etməyi təklif edib. Bu məqsədlə R.Seyidova dəstə üzvləri ilə birlikdə Kürdəmir rayonuna gedərək, qohumunun evinin yerini onlara göstərib.

Qətlə yetirilən 1994-cü il təvəllüdlü Saman Mohtati İran vətəndaşı olsa da Azərbaycanda doğulub. O, Azərbaycan Dövlət Tibb Universitetinin 5-ci kurs tələbəsi idi.

Mərhumun atası Nemat Mohtati uzun illərdir Azərbaycanda yaşayır və biznes fəaliyyəti ilə məşğuldur.

❑ **İlkin MURADOV, Musavat.com**

**“İrşad Electronics” MMC-nin rəhbəri İrad Ağahüseyn oğlu Hacıyevin intihar etdiyi iddiası yayılıb. Bu barədə məlumatı “baku.ws” yayıb. Saytın yazdığına görə, İrad Hacıyevin intihar etməsi ilə bağlı məlumatı onlara mərhumun yaxınlarından biri verib.**



# “İrşad telekom” sahibinin ölümündə kriminal izlər - yeni iddialar

## İrad Hacıyevin ölümü ciddi şübhələrə yol açıb; mərhumun qurduğu biznes şəbəkə ilə bağlı da müəmmalı proseslərin getdiyi deyilir






Məlumatı çatdıran şəxs deyib ki, İrad Hacıyev özünə qəsd etmək üçün çoxlu sayda dərman içib. Onun meyitini vannada aşkar ediblər. Vannanın kənarında isə intihar etmək üçün içdiyi iddia olunan dərman qutuları aşkarlanıb. Hadisə ilə əlaqədar Bakı Şəhər Prokurorluğundan (BŞP) da məlumat alınıb. BŞP-dən intihar faktı təsdiqlənib, bildirilib ki, həqiqətən də İrad Ağahüseyn oğlu Hacıyev intihar edib. “İrad Ağahüseyn oğlu Hacıyevin ölümü ilə əlaqədar sentyabrın 14-də Cinayət Məcəlləsinin 125-ci (öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. İstintaq gedir” - deyə məlumatda qeyd olunub.

“Yeni Müsavat” xəbər verir ki, 1978-ci il təvəllüdlü İrad Hacıyev dünyasını dəyişəndən sonra onun intihar etməsi xəbəri ilə yanaşı, infarktdan ölməsi xəbəri yayılıb. Son xəbərlər isə məşhur mağazalar şəbəkəsinin sahiblərindən birinin ölümündə mübhəm məqamların olduğuna dəlalət edir. Məşhur biznesmen infarktdan ölübsə, məhkəmə tibb ekspertinə bunu müəyyən etmək üçün 1 ay vaxt lazım deyil. 1 saatın içində daxili müayinə, ürəyin ətraflı yoxlanılması konkret fikir söyləməyə imkan verir. Azərbaycanda bilik səviyyəsi yüksək olan kifayət qədər məhkəmə tibb eksperti var. Yəni iş adamının infarktdan dünyasını dəyişməsi xəbərlərinin ömrü məhkəmə tibb ekspertlərinin mərhumun meyitini xarici və daxili müayinədən keçirənə qədər olmalı idi.

Bəs nə baş verib? Onu özünü öldürmə həddinə kim çatdırıb? 40 yaşında belə bir məqama çatmış iş adamı evinə çəkilib vanna otağında özünü öldürmək niyyəti ilə niyə dərman içsin ki?

**Mərhumun qardaşı, tanınmış rejissor Əhəd Hacıyev publika.az-a açıqlamasında bildirib ki, qardaşının intihar etməsi ilə bağlı deyilənlər həqiqəti əks etdirmir:** “İndidən ölüm səbəbini dəqiq söyləmək mümkün deyil. Faktla bağlı ekspertiza təyin edilib və ekspertizanın rəyini gözləmək lazımdır. Bizə həkimlərin dediyi ilk o oldu ki, qardaşım ürək tutmasından, yəni ürəyindəki trombdan qəfil vəfat edib. Prokurorluq hər bir ehtimalı araşdırır deyə bu hadisəni intihar kimi qiymətləndirmək doğru deyil”.

**Azərbaycan Dövlət Musiqili Teatrının rejissoru olan Ə.Hacıyev bildirib ki, qardaşının hər hansı problem, sıxıntısı olmayıb:** “O, neçə il idi ki, anamızı xaricdə müalicə etdirirdi və hadisədən iki gün sonra ora uçmalı idi. Necə ola bilər ki, bu qədər mübarizə aparan, həyata bağlı olan insan intihar etsin? Həm də onun maddi sıxıntısı, problemi yox idi. Şirkətin işləri də normal gedirdi. Ailəsi, övladları, hər şeyi qaydasında idi və onun psixologiyasına təsir edə biləcək bir şey baş verməmişdi”.

Mərhum iş adamının qardaşının açıqlaması, göründüyü kimi, ortada olan ölümlə bağlı mübhəmlərə aydınlıq gətirmir. Əksinə, ölüm işində şübhəli məqamların olması iddialarını gücləndirir. Qardaşının dediyindən belə anlaşılır ki, İrad Hacıyev sentyabrın 16-da xaricə getməyə hazırlaşırmış. Bundan başqa, onun maddi sıxıntısı, problemi olmayıb, şirkətin işləri normal gedib, ailəsi, övladları, hər şeyi qaydasında olub. Psixologiyasına təsir edə biləcək bir şey baş verməyib. Bəs ölümün səbəbi nədir? Burada kriminal izlər varmı?

Maraqlıdır ki, baş verən olaydan sonra “İrşad Telekom”in digər sahibləri hər hansı açıqlama verməyiblər. Ən azı onlar da mövqelərini bildirə, İrad Hacıyevin işlə bağlı, biznesələ əlaqəli problemlərin olub-olmamasına aydınlıq gətirə bilərdilər...

Qeyd edək ki, İrad Hacıyev biznes şəbəkəsini 22 yaşı olanda, 2000-ci ildə Rəşad adlı şəriki ilə yaradıb. 2007-ci ilə qədər “I&R Telecom” kimi fəaliyyətdə olan şirkət həmin ildən “İrşad Telecom” (İrşad İ.R. MMC) adı altında fəaliyyətini davam etdirməkdədir. İrşad sözünün İrad və Rəşad sözlərinin birləşməsindən yarandığı haqda da xəbərlər var. Bildirilir ki, bir müddət əvvəl şirkətdə daha bir nəfər rəhbər şəxs peyda olub. İrad Hacıyevin həmin şəxslə münasibətləri o qədər də isti olmayıb. Belə xəbərlər də var ki, 2000-ci ildən bu günə qədər şirkətin 31 mağazaya qədər böyüməsində İrad Hacıyevin böyük əməyi olub. Şirkətin bundan sonrakı dövrdə digər bir holdinqin daxilində fəaliyyəti haqda da ona təkliflər edilibmiş. Lakin İrad Hacıyev bu təklifləri qətiyyətlə rədd etməsi iddiası da var.

Bu və digər iddiaların nə dərəcədə doğru olmasına aydınlıq gətirmək üçün “İrşad Telecom”la əlaqə saxladıq. Suallarımızı dinləyib münasibət açıqlayacaqlarını bildirdilər. Günün sonuna qədər münasibət açıqlanmadı. Açıqlanacağı təqdirdə həmin açıqlamanı da təqdim edəcəyik.

Hadisə ilə bağlı sosial şəbəkələrdə də ən müxtəlif məlumatlar dolaşmaqdadır. Belə müzakirələrdən biri də disput.az saytında https://www.disput.az/index.php?app=forums&module=forums&controller=topic&id=1200810 ttps://www.disput.az/index.php?app=forums&module=forums&controller=topic&id=1200810 aparılmaqdadır. “İrşad telekom” sahibi müəmmalı şəkildə ölüb" adı altında aparılan müzakirələrdə ölümlə bağlı ən müxtəlif səbəblər göstərilib. Məsələn, “Shoyla” adlı istifadəçi ehtimal edir ki, şirkət sahibinin ölümü “peredazirovka”dan ola bilər. Bir başqa istifadəçi isə şirkət sahibinin ölümünü telefonların qeydiyyatının 5 manatdan 150 manata qədər bahalaşması ilə əlaqəli görür. İddia edir ki, bahalaşma təşəbbüsü ilə məhz şirkət sahibi çıxış edib və sonradan hökumət belə bir addım atıb. Bu bahalaşma ilə şirkət sahibinin ölümü arasındakı birbaşa əlaqə haqda isə hər hansı bir sübut, dəlil göstərilmir. Sadəcə, qeyd olunur ki, hazırda fiziki şəxslər telefonlarını qeydiyyatdan keçirərkən böyük məbləğlər ödəməli olduqları halda, böyük şirkətlər əvvəlki rüsumları ödəməkdədirlər.

Yenə də bu məsələ ilə İrad Hacıyevin ölümü arasındakı əlaqə haqda hər hansı bir aydınlaşdırıcı fakt, məlumat, sübut təqdim olunmur. Ümumilikdə müzakirələrdə İrad Hacıyev imkanları genişlənməkdə olan iş adamı, yaxşı ailə başçısı kimi təqdim olunur.

Bu gün “belə bir şəxs, iş adamı özünü niyə öldürüb” sualı açıq olaraq qalmaqdadır.

Əlavə edək ki, Azərbaycanda iş adamlarının müəmmalı ölüm işləri zaman-zaman baş verib. Məsələn, 2015-ci il martın 11-də Bakıda, Yasamaldakı ofisində 1974-cü il təvəllüdlü Füzuli Şubay oğlu Qasımovun meyiti aşkar olundu. Həmin dövrdə Fizuli Qasımova məxsus olan və Goranboyda yerləşən “Goranboy gips” şirkətinin əlindən alınmasına cəhdlər vardı. O dövrdə nəqliyyat naziri vəzifəsini tutan Ziya Məmmədovun ailə şirkəti “Garant holdinq” Fizuli Qasımovun şirkətinə sahiblənmək üçün addımlar atmışdı. Fizuli Qasımov isə şərikləri olan yaxınlarının razılığına rəğmən şirkəti təhvil vermək istəmirdi. Belə bir vaxtda Yasamaldakı ofisində onun ürəyindən atılmış güllə yarası ilə meyiti aşkar edilmişdi. 2015-ci ilin martında müəmmalı şəkildə dünyasını dəyişmiş Fizuli Qasımovun da, 2018-ci il sentyabrın 14-də yenə də müəmmalı şəkildə dünyasını dəyişən İrad Hacıyevin də ölümü ilə bağlı eyni maddə - özünü öldürmə həddinə çatdırma maddəsi ilə başlanmış cinayət işi çərçivəsində araşdırmalar aparılıb və aparılmaqdadır.

2015-ci il martın 11-də Yasamal Rayon Prokurorluğunda Fizuli Qasımovun ölümünə görə Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə başlanmış cinayət işinə bir müddət sonra xitam verilmişdi. Səbəb sadə idi - istintaqçılar müəmmalı ölümdə cinayət tərkibi tapmamışdılar. İrad Hacıyevin ölüm işi üzrə də analoji qərarın veriləcəyi perspektivi yox deyil.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

**Xorvatiya milli komandasının və Madrid “Real”ının yarımmüdafiəçisi Luka Modriçin dünyanın ən yaxşı futbolçusu seçilməsi ədalətli qərar idi. Luka Modriçdən başqa bu ada Məhəmməd Salah və Kriştiano Ronaldo da iddia edirdi ki, onlar sorğuda qalib ola bilmədilər.**



# Dünyanın ən yaxşı futbolçusunun film kimi həyatı

## Luka Modriç FİFA-nın sorğusunda qalib oldu; vaxtilə müharibədən qaçan uşağın bugünkü xoşbəxt həyatı...







Modriç həm də ötən mövsüm “Real”dakı uğurlu oyununa görə bu ada sahiblənsə də, onun Rusiyada cəmi iki ay əvvəl yekunlaşan dünya çempionatında komandası üçün etdiyi əvəzsiz xidmət idi. Xorvatiyanın finaladək irəliləməsi, əlbəttə, həm də Modriçin sayəsində mümkün oldu. Onun haqqında DÇ çempionatının sonlarına yaxın “Yeni Müsavat”da ətraflı yazı hazırlamışdıq. Dünyanın ən yaxşı oyunçusu seçilmiş Modriçlə bağlı yazını bu səbəbdən yenidən təqdim edirik.

Yeri gəlmişkən, İspaniya məhkəməsi vergidən yayındığına görə 33 yaşlı yarımmüdafiəçiyə 8 aylıq həbs cəzası verib.

İspaniya qanunlarına əsasən, oyunçu həbs cəzasını pul ödəməklə əvəzləyə bilər. Beləliklə, o, İspaniya hökuməti ilə əldə etdiyi razılığa əsasən, 60 min avro ödəməklə həbs cəzası çəkməkdən azad olunacaq.

**Müharibə çocuğu**

Eduard Modriç 1985-ci ilin 9 sentyabrında Xorvatiyanın Zadar şəhərində anadan olub. 1990-cı illərin Yuqoslaviya müharibələri zamanı Lukanın ailəsi Zatona köçmək məcburiyyətində qalıb. Onun babası hərbi əməliyyatlar zamanı ələ keçib və güllələnib. Həm müharibəni, həm babasının başına gələnləri ondan gizlədiblər.

Atası ordudan döndükdən sonra Luka yerli idman akademiyasında futbol oynamağa başlayır. Çətin vaxtlara baxmayaraq, Modriçin atası pulunun bir hissəsini maaşından ayıraraq oğlunun yaxşı məşq etməsinə şərait yaradır.

2002-ci ildə 16 yaşlı Luka ilə Zaqrebin “Dinamo” klubu maraqlanır və elə həmin ilin iyununda onunla müqavilə imzalanır. Luka “Dinamo”da öncə gənclərdən ibarət komandasında meydana çıxır. Bir il sonra “Dinamo” rəhbərliyi Lukanı “Zrinski” klubunda icarə müqaviləsi ilə transfer edir. Luka Bosniya və Herseqovina çempionatının 2003/2004 mövsümündə universal oyun stili göstərir və Bosniya Premyer-Liqasının “Ən yaxşı oyunçusu” olur. 2004-cü ildə Modriç Xorvatiyanın “İnter” klubuna keçib. Bu klubda da məhsuldar oynayan Modriç həmin mövsümdə “İnter”in heyətində Xorvatiya çempionatında gümüş medalını qazanır. Bu isə kluba UEFA kubokuna bilet demək idi. Elə həmin mövsüm o, “Xorvatiyanın Futbol Ümidi”adına layiq görülür. 2005-ci ilin əvvəlində Zaqreb “Dinamo”su Modriçi yenidən kluba qaytarıb. Luka tezliklə “Dinamo”nun əsas heyətində özünə yer tutmağı bacarıb. Sonrakı üç mövsümdə də Zaqreb komandasında qalan Modriç 112 oyunda meydana çıxır və 31 qol vurur.

2007-ci ildə Zaqreb “Dinamo”su Xorvatiya çempionluğunu bayram edir. Elə həmin il klub Xorvatiya kubokunu da qazanır. Luka Modriç isə Xorvatiyanın ən yaxşı futbolçusu adına layiq görülür. “Dinamo” UEFA kubokunda pis nəticə göstərmir, 2008-ci ildə 1\4 finaladək yüksəlir. Modriçin Avropa meydanlarındakı parlaq oyunu bir sıra klubların dərhal diqqətini çəkir.

**“Tottenhem” yolçuluğu**

Bu diqqət onunla nəticələnir ki, 2008-ci ilin aprelində Modriç İngiltərənin “Tottenhem” klubu ilə müqavilə imzalayır. “Totenhem” Modriçə 6 illik müqavilə və 16,5 milyon avro təklif edir. Bu, 2007-ci ildə Darren Bentin alınmasından sonra “Tottenhem” üçün rekord transfer ödənişi hesab olunurdu. Modriç klubun heyətində ilk oyuna “Norviç City” yə qarşılaşmada çıxır. “Tottenhem” bu matçda 5: 1 hesabı ilə qalib gəlib və Luka 45 dəqiqə meydanda olur. Avqustun 16-da oynadığı ilk rəsmi matçda “Tottenhem” “Midlsbro” klubuna uduzur. Modriç həmin oyunda hücumameyli yarımmüdafiə xəttində ilk dəfə özünü sınayır. Amma Modriç kluba transfer olmamışdan “Tottenhem”in turnir vəziyyəti kifayət qədər qəliz idi. Bu vəziyyətdə isə əsas tənqid hədəflərindən biri Modric idi.

Tezliklə komandanın baş məşqçisi Xuanda Ramos işdən çıxarılır və “Portsmut”un sabiq texnik direktoru Harri Redknapp “Tottenhem”ə baş məşqçi gətirilir. Onun gəlişi ilə klubun vəziyyəti yaxşılaşdı. Redknapp əsas oyunu Luka Modriçin üzərində qurmaq niyyətində idi. Modriç tədricən mərkəz yarımmüdafiəçi mövqeyində möhkəmlənir. Modriç “Stoke City” və “Çelsi”yə qarşı oyunlarda özünü ən yaxşı tərəfdən göstərməyə nail olur. “Tottenhem”də ilk rəsmi qolunu Modriç Moskva “Spartak”ilə qarşılaşmada vurur, matç bərabərliklə sona çatır (2: 2). Üç gün sonra Modriç, nəhayət, Premyer-Liqada da ilk qolunu vurur.

“Tottenhem” 2010/2011-ci illər mövsümündə dördüncü yeri tutur və tarixində üçüncü dəfə Çempionlar Liqasında oynamaq şansı qazanır. 2010-cu ilin sentyabr ayında “Tottenhem” Modriçə daha 6 il müddətinə müqavilə təklif edir və qiyməti iki qat artırır. Artıq “Tottenhem”in heyətində Qaret Beyldə vardı və o, Modriçlə əla ikili kimi oynayırdılar. 2011-ci ildə Modriç və Beyl “Tottenhem”in əzəli rəqiblərindən olan “Arsenel”la qarşılaşmada komandasının 2:1 hesablı qələbəsini təmin etdilər.

Modriç “Tottenhem”də oynadığı son mövsümdə 6 qol vurdu və 8 qol ötürmə etdi. Həmin il klub Çempionlar Liqasının 1\4 finalına çıxdı. Yarımfinalda “Tottenhem” Modriçin gələcək klubu olan “Real”la qarşılaşdı. “Real” iki oyunda “Tottenhem”in qapısından beş top keçirərək Modriçin klubuna heç bir şans vermədi.

Avropa çempionatından əvvəl Madrid klubu Luka Modriçi transfer etmək istəyirdi və bu istəkləri alındı. 2012-ci ilin avqustunda “Real”Modriçlə 5 illik müqavilə imzalayır. İspan klubu “Tottenhem”ə bu transfer üçün 33 milyon funt-sterlinq ödədi.

2012-ci ilin payızında Modriç “Saraqosa” ilə qarşılaşmanın ikinci dəqiqəsinə “Real”da ilk qolunu vurdu. Amma İspaniyanın “Marca” jurnalı Modriçi 2012-ci ilin ən pis transferi adlandırdı. Lakin zaman keçdikcə xorvat futbolçu “Real”ın əsas mərkəz yarımmüdafiəçisi oldu.

2017/2018 mövsümündə Modriç “Real”ın ən yaxşı xorvat futbolçusu kimi tanındı. Çempionlar Liqasının qalibi kimi də sevindi.

**Milli komandada**

Luka Modriç Xorvatiya milli komandasında ilk dəfə 2008-ci ilin 1 martında Argentina ilə qarşılaşmada debüt edib. 2008-ci il Avropa çempionatında o, komandasının əsas oyunçularından birinə çevrildi və turnirin simvolik milli komandasına daxil oldu. Həmin çempionatda Modriç həm qol vurdu və bir neçə dəfə uğurlu qol asissenti oldu. Komanda 1/8 finalda penallarda Türkiyəyə uduzaraq turniri tərk etdi.

2010-cu il mundialında Luka Modriç komandasının bütün matçlarında iştirak etdi, yaddaqalan oyunu ilə seçildi, bir oyunda həm qol vurdu, həm uğurlu ötürmə etdi. 2018-ci il Rusiya mundialında da Modriç komandasının əsas ümidlərindən biridir.

Luka Modriç Rusiya mundialında da ən yaxşı sözlərə layiqdir.

**Üç uşaq atası**

Luka 25 yaşı olanda ailə qurub. Həyat yoldaşı Vanya Bosniç onun agenti olub. Dörd il birgə olduqdan sonra münasibətlərini rəsmiləşdiriblər. Modriçin üç uşağı var: bir oğlan, iki qız. Modriç ailəcanlı adamdır, həmkarlarından fərqli olaraq səs-küylü məclislərdə, gecə klublarında əylənməyi sevmir.

**❑ Nazim SABİROĞLU,**
**“Yeni Müsavat”**







# YENİ MÜSAVAT

## Son səhifə

*N 201 (7090) 26 sentyabr 2018*




# Pendirli zarafat etdi, 13 yaşlı sinif yoldaşını öldürdü

Londonda pendirə görə ölən məktəblinin işi üzrə məhkəmə prosesi keçirilib. Bu barədə "The Times" nəşri xəbər verib. 13 yaşlı Karanbir Çima adlı şagirdin başda buğda, qoz, qlüten və süd məhsulları olmaq üzrə bir çox məhsullara qarşı allergiyası olub. Bədəninə pendirin dəyməsi ilə dərhal allergik reaksiyası başlayırdı. Yeniyetmənin dərisi dərhal qızarır, nəfəs almağı da çətinləşir. Məktəbdə də onun başına belə bir iş gəlib.

Təcili yardım onun yanına gələndə məktəbli zorla nəfəs alırdı. Ona antiqistamin aparatı veriblər, təcili müdaxilə ediblər. Buna baxmayaraq, onun nəfəsi dayanıb. Həkimlər uşağı süni tənəffüs, ürək masajı, adrenalik inyeksiyası ilə həyata qaytarmağa çalışıblar. Daha sonra onu xəstəxanaya çatdırıblar. Amma uşaq özünə gələ bilməyib və 10 gün sonra dünyasını dəyişib. Bundan sonra məktəbin 13 yaşlı digər bir şagirdini həbs ediblər. Onu qətlə təşəbbüs maddəsi əsasında həbs ediblər. Amma ittihamın detalları açıqlanmır. Sadəcə, bildirilir ki, ölən uşaqda allergik reaksiyaların yaranmasına məhz 13 yaşlı sinif yoldaşının pendirlə bağlı zarafatı səbəb olub.

# Həyatı boyu ancaq çörək, süd və kartof qızartması yeyib



ABŞ-ın Nyu-York şəhərində yaşayan 1 uşaq anası, 54 yaşlı Marla Lopez həyatı boyu cəmi üç növ qida yeyib. Bunlar çörək, süd və kartof qızartması olub. "Good Morning America" adlı verilişdə qonaq kimi iştirak edən Lopez deyib ki, həyatı boyu heç meyvə və tərəvəz yeməyib. Ancaq bu 3 qida növündən istifadə edən qadın deyib ki, bu, qidalanma pozğunluğundan yaranan haldır və uşaqlıqdan bəri onda bu hal mövcuddur. Bəzən qadın "çaşıb" keks və ya peçenye yeyir. Amma onun favorit yeməyi yenə də kartof qızartmasıdır. Səhhətində heç bir problem olmayan qadının bu qidalanma növünü isə mütəxəssislər doğru hesab etmir.

# Evdə bu işləri görsəniz, arıqlayacaqsız

İsveçrəli alimlər müəyyənləşdiriblər ki, evdar qadınların arıqlaması işgüzar qadınlara nisbətən daha asandır. Belə ki, bəzi ev işləri insanın daha çox kalori yandırmasına səbəb olur. 30 dəqiqəlik ev işlərinə qarşılıq olaraq yandırılan kalorinin miqdarı aşağıdakı kimidir:

Toz almaq, yüksəkdə olan rəfləri təmizləmək - 50 kalori

Paltar ütüləmək, yataq hazırlamaq - 70 kalori

Yemək hazırlamaq - 80 kalori

Yerləri süpürmək və ya silmək - 90 kalori

Qab yumaq, otağı yığışdırmaq - 100 kalori

Pəncərələri silmək, maşın yumaq - 150 kalori

Hamamı təmizləmək, torba daşımaq - 200 kalori

Nərdivanları çıxmaq, evi boyamaq - 250 kalori



# Yalandan xərçəng olduğunu deyib 9 min dollar yığdı

Avstraliyanın Viktoriya ştatının Kerolayn-Sprinqz şəhərində bir qadın yalandan xəstə olduğunu deyərək insanlardan xeyriyyə məqsədilə pul yığdığı üçün cinayət məsuliyyətinə cəlb olunacaq. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Pula ehtiyacı olan 26 yaşlı qadın iki ay boyunca bütün qohumlarına, dost və tanışlarını böyrək xərçəngi olduğunu deyib. Bir çoxları onun bu yalanına qarşılıq olaraq ya nağd pul təklif ediblər, ya da onun bank hesabına pul köçürüblər. Bu yolla qadın 9 min Avstraliya dolları məbləğində pul yığıb. Yalan üzə çıxanda isə bununla hüquq-mühafizə orqanları maraqlanıblar. Qadına qarşı dələduzluq yolu ilə pul əldə etməyə görə cinayət işi qaldırılıb. Hazırda polis qadına pul verən zərərçəkənlərin siyahısını müəyyənləşdirir. Qadına bu qədər pulun hansı səbəbdən lazım olduğu isə açıqlanmayıb.

18 sentyabrda isə xəbər verildi ki, 40 yaşlı avstraliyalı qadın 8 il boyunca özünü xərçəng xəstəsi kimi təqdim edib. Bu müddət ərzində onun xəstəliyi üçün xeyriyyə məqsədilə 400 min Avstraliya dolları məbləğində pul yığılıb.




**QOÇ** - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Nahardan sonra ciddi və riskli işlərə qol qoymayın. Çünki həmin vaxt sizə mənfi enerjili Ayın təsiri artacaq.

**BUĞA** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu amil daha çox sevgi zəminində reallaşacaq. İş yerində isə həmkarlarınızla xırda mübahisələriniz gözlənilir. Çılğınlıqdan uzaq olun.

**ƏKİZLƏR** - Əsas vaxtınızı istirahətə yönəltməyə çalışın. Hər hansı fiziki iş səhhətinizə mənfi təsir göstərə bilər. Bu gün cinsi yaxınlıq, ağır fiziki işlərə girişmək sizin üçün yolverilməzdir.

**XƏRÇƏNG** - Hər mənada uğurlu təqvimdir. İstər şəxsi büdcəni artırmaq istiqamətində, istərsə də işgüzar sövdələşmələrdə irəliləyişləriniz mümkündür. Belə bir gündə falçıya getməyin.

**ŞİR** - Bu gün istirahət etmək fikriniz çətin ki, baş tuta. Əksinə, ikitərəfli sövdələşmələrə və yeni işlərə başlamaq lazımdır. Büdcənizdə artım da ola bilər. Mübahisələrdən uzaq qaçın.

**QIZ** - Astroloji göstəricilər günün birinci yarısını müəyyən qədər gərgin tərzdə başa vuracağınızı bəyan edir. Sonrakı müddətdə isə ətrafınızda olanların rəğbətini qazanacaqsınız.

**TƏRƏZİ** - Olduqca uğurlu təqvimdir. Ulduzlar bir tərəfdən əlverişli təkliflər alacağınızı, digər tərəfdənsə maliyyə uğurlarına nail olacağınızı bildirir. Hər mənada nikbin olmağa əsas var.

**ƏQRƏB** - O qədər də ürəkaçan olmayan maddi durumunuzu dirçəltmək üçün müəyyən imkanlar qazanacaqsınız. Büdcənizi artırmaq istiqamətində dəstək ala bilərsiniz. Kobudluğa yol verməyin.

**OXATAN** - Saat 15-ə qədər hər bir görüşü təxirə salmağınız məsləhətdir. Əks təqdirdə gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz. Özünə qapılmağa da dəyməz. Günün ikinci yarısını gözləyin.

**OĞLAQ** - Deyəsən, Göy qübbəsi əzablarınızı görüb sizə güzəştə getmək fikrinə düşüb. Bu səbəbdən də əksər məsələlərdə yardımçınız olmaqdadır. Səfərə çıxmaq və varlanmaq ehtimalınız da var.

**SUTÖKƏN** - Ulduzlar yalnız qarşılıqlı əlaqələr zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu baxımdan gəzintiyə çıxmaq, qonaq getmək səmərəlidir. Riskli işlərdən yayının.

**BALIQLAR** - Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələr olsa da, özünüzü təmkinli aparmalısınız. Deyilən hər sözə ciddi yanaşmayın. Yaxşı olar ki, bütün gücünüzü fəaliyyətə yönəldəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Tələbə əməliyyat otağından canlı yayım etdi



Yaroslav Dövlət Tibb Universitetinin tələbəsi bütün dünyanın qəzəbinə səbəb olan bir hərəkət edib. Belə ki, o, iştirak etdiyi bir əməliyyatı internetdə Periscope-də canlı yayımla paylaşıb. Amma məsələnin qəzəbə səbəb olan yönü əməliyyatda yarıçılpaq vəziyyətdə olan bir qadın xəstənin də görünməsidir. Gənc onlayn danışmağa başlayan vaxt arxa fonda əməliyyat stolunda yatan, narkozdan yenicə ayılan xəstə də olub. Onun sinəsi həmin vaxt açıq olub. Tələbə sosial şəbəkədə fonda yarıçılpaq xəstənin də olduğu şelfi paylaşıb. Sosial şəbəkə istifadəçiləri onun bu hərəkətini kəskin şəkildə tənqid ediblər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100